**Dünya mediası Azərbaycan bayrağının Laçında ucaldılması barədə yazır**




2



# Səs

№ 156 (6597) 31 avqust 2022-ci il. Qiyməti 60 qəpik

# Qarabağ bölgəsi: Dirçəliş və inkişaf dövrü!

İlham Əliyev: "Qarabağda çox geniş miqyasda tikinti-quruculuq ili olacaq"



3

# Ermənistanın ABŞ-la bioloji silah əməkdaşlığı



8

"Öhdəliklərini yerinə yetirmək üçün Ermənistana təzyiq göstərməyə çağırırıq"



3

**Şəhid dərdi, qazi dərdi, bir də ki, itkin dərdi...**



10

Düşmən çörəyi ilə bəslənib, özlərini satışa çıxaranlar




6

## Qarabağ separatçıları nəyi bölə bilmirlər?



4




16

**Bu futbolçu 50 milyon avroya transfer oldu!**



13

**Heyvanlarla təmas zamanı təhlükəsizliyimizi necə qorumalıyıq?**

# "Azərbaycan-Türkiyə birliyinin, qardaşlığının və müttəfiqliyinin dünyada bənzəri yoxdur!"

*Prezident İlham Əliyev Türkiyənin Zəfər Bayramı münasibətilə Prezident Rəcəb Tayyib Ərdoğana təbrik məktubu göndərib*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyənin Zəfər Bayramı münasibətilə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana təbrik məktubu göndərib.**

Belə ki, dövlətimizin başçısı təbrik məktubunda 30 Avqust Zəfər Bayramının 100-cü ildönümü münasibətilə Prezident Rəcəb Tayyib Ərdoğana və qardaş Türkiyə xalqına ən səmimi təbriklərini və xoş arzularını yetirib.

Məktubda deyilir: "Yüz il əvvəl Dumlupınarda Qazi Mustafa Kamal Atatürkün komandanlığı altında qazanılmış şanlı qələbə qardaş xalqınızın qəhrəmanlıqlarla zəngin olan tarixinin ən şərəfli səhifələrindən biridir. Türkiyənin müstəqillik və istiqlaliyyət mübarizəsi salnaməsinə qızıl hərflərlə həkk olunmuş bu böyük zəfər xalqınızın sarsılmaz iradəsinin, yenilməzliyinin, birliyinin və şücaətinin bariz nümunəsidir. Vətənlərinin azadlığı və müstəqilliyi yolunda mərdlik və rəşadət göstərmiş, canlarını vermiş şəhidlərimizin əziz xatirəsini dərin hörmət və ehtiramla yad edirik.



Möhtəşəm zəfərdən ötən bir əsr sonra bu gün qardaş Türkiyə Sizin rəhbərliyiniz ilə hərtərəfli inkişaf edən, güclü və qüdrətli bir ölkəyə çevrilmişdir. Dünyada və regionda baş verən mürəkkəb proseslərdə qətiyyətli və prinsipial mövqeyi, sülhün, haqq-ədalətin bərqərar olması üçün ardıcıl səyləri ilə Türkiyə beynəlxalq aləmdə nüfuz qazanmışdır. Ölkənizin bütün sahələrdə əldə etdiyi uğurları bizi olduqca fərəhləndirir".

Təbrik məktubunda "Bir millət iki dövlət" prinsipinə əsaslanan Azərbaycan-Türkiyə birliyinin, qardaşlığının və müttəfiqliyinin dünyada bənzəri olmadığını qürur hissi ilə vurğulayan Prezident İlham Əliyev qeyd edib: "Dövlətlərarası münasibətlərimizin gündən-günə genişlənməsi və yeni məzmunla zənginləşməsi məmnunluq doğurur. Əminəm ki, tarixən bir-birinə dəstək və dayaq olmuş qardaş xalqlarımızın iradəsindən, eləcə də Şuşa Bəyannaməsindən qaynaqlanan strateji müttəfiqliyimizin möhkəmlənməsi, qarşılıqlı faydalı əməkdaşlığımızın daha da dərinləşməsi istiqamətində birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik".

## Rəsmi xronika

Avqustun 30-da Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Telefon danışığı əsnasında Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması prosesi və Avropa İttifaqının təşkilatçılığı ilə avqustun 31-də Brüsseldə keçiriləcək görüşün gündəliyinə aid məsələlər müzakirə olunub.

***

Prezident İlham Əliyev Nəsibə Abdullayevaya "Xalq artisti" fəxri adının verilməsi haqqında sərəncam imzalayıb. Sərəncama əsasən, Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında mədəni əlaqələrin inkişafında xidmətlərinə görə Nəsibə Məlikovna Abdullayevaya "Xalq artisti" fəxri adı verilib.

# Dünya mediası Azərbaycan bayrağının Laçında ucaldılması barədə yazır




**Yaponiyanın "ajmedia.jp" portalı Azərbaycan bayrağının Laçın rayonunda ucaldılması barədə məlumatlar yayıb. Belə ki, yapon və ingilis dillərində yayılan məlumatlarda avqustun 26-da Laçın şəhərində Azərbaycanın Dövlət bayrağının ucaldılması haqqında xəbərlər əksini tapıb.**

Məlumatlarda Prezident İlham Əliyevin Azərbaycan Ordusunun Laçın şəhərinə yerləşməsi, Zabux və Sus kəndlərinin nəzarətə götürülməsi barədə etdiyi paylaşım xüsusi yer alıb. Dövlətimizin başçısının bu münasibətlə bütün laçınlıları və Azərbaycan xalqını təbrik etdiyi qeyd edilib.

Bundan başqa, Moldovanın nüfuzlu KİV-lərində Laçın şəhərində Azərbaycan bayrağının ucaldılması barədə xəbərlər yayımlanıb.

Belə verir ki, "Noi", "Publika", "Primele Stiri" və digər xəbər portallarında rumın və rus dillərində çap olunan məqalələrdə avqustun 26-da Laçın şəhərində Azərbaycanın Dövlət Bayrağının ucaldılması qeyd olunub.

Xəbərlərdə diqqətə çatdırılıb ki, Prezident İlham Əliyev Azərbaycan Ordusunun Laçın şəhərinə yerləşməsi, Zabux və Sus kəndlərinin nəzarətə götürülməsi barədə paylaşım edib.



PRIMELE STIRI

**Ильхам Алиев: 26 августа, мы, азербайджанцы, вернулись в город Лачин**

4 часа назад

Embed:

<iframe src='https://primelestiri.md/embed/125687

Ильхам Алиев: 26 августа, мы, азербайджанцы, вернулись в город Лачин

**26 августа город Лачин, села Забух и Сус перешли под контроль Азербайджана. Об этом сообщил президент Азербайджана Ильхам Алиев на своей странице в соцсети Twitter.**

«Сегодня, 26 августа, мы – Азербайджанцы вернулись в город Лачин. Азербайджанская армия размещена в городе Лачин. Взяты под контроль села Забух и Сус. Поздравляю всех лачинцев и Азербайджанский народ с этим событием. Да здравствует Лачин! Да



NOI +28°C $ 19.38 € 19.34

Азербайджан разместил свои войска в городе Лачин в Карабахе

26 авг. 13:15 Разное 939

**Азербайджан разместил свои войска в городе Лачин в Карабахе. Об этом сообщил президент Азербайджана Ильхам Алиев в своем Twitter.**

«Сегодня, 26 августа, мы, азербайджанцы, вернулись в город Лачин. Азербайджанская армия дислоцировалась в городе Лачин. Села Забух и Сус взяты под контроль. Поздравляю с этим всех лачинцев и азербайджанский народ. Да здравствует Лачин! Да здравствует Азербайджан!» - сказано в сообщении

Город Лачин будет передан под контроль Азербайджана к 25 августа

# Qarabağ bölgəsi: Dirçəliş və inkişaf dövrü!

## İlham Əliyev: "Qarabağda çox geniş miqyasda tikinti-quruculuq ili olacaq"






**Bəli, ötən il Azərbaycanın şanlı tarixinə 44 günlük Vətən müharibəsi kimi düşən İkinci Qarabağ savaşı uğurla yekunlaşandan sonra xalqımız və dövlətimizin qarşısında yeni məsul vəzifə dayandı. Bu, işğaldan azad edilmiş tarixi və əzəli torpaqlarımızda quruculuq, bərpa işlərinin aparılması, yenidən Qarabağa həyatın qaytarılmasıdır. Artıq 44 günlük qələbəmizdən bir il yarımdan çox vaxt keçməsinə baxmayaraq bu istiqamətdə genişmiqyaslı işlər görülür, əcnəbi şirkətlərlə birgə yeni iqtisadi, quruculuq layihələri hazırlanır, hətta infrastrukturun bərpası ilə bağlı bir çox ilkin tədbirlər həyata keçirilir. Təbii ki, bütün bu mənzərələrin fonunda ölkə başçısının işğaldan azad olunmuş ərazilərə mütəmadi səfərlər etməsi quruculuq və bərpa işlərinin daha operativ və effektiv şəkildə davam etdirilməsini təmin edir.**

Bəli, bu gün Qalib Lider, Prezident İlham Əliyevin işğaldan azad olunmuş rayonlara səfəri zamanı - "Qarabağda cənnət yaradacağıq" vədi sözü ilə əməlin bir olmasının göstəricisidir. Prezident İlham Əliyev bu günə qədər verdiyi bütün sözləri, "Qarabağda cənnət yaradacağıq" vədini addım-addım yerinə yetirməkdədir.

Bir sözlə, may ayının 10-da Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Füzuli və Şuşa şəhərlərinə səfər edərək azad nəfəs alan torpaqlarımızı gəzir, Qarabağın cənnətə çevrilməsi üçün tapşırıqlarını verir, işlərə nəzarət edir, yeni layihələrin həyata keçirilməsi yollarını arayıb-axtarır və bu sahədə əməli tədbirlər görür. Azərbaycan xalqı da öz Prezidentinə inanır və güvənir və əmindir ki, qısa zaman çərçivəsində işğaldan azad olunmuş ərazilər bərpa ediləcək, böyük qayıdış başlayacaq və Azərbaycan dünyanın ən abad, gözəl, inkişaf etmiş dövlətləri sırasında olacaqdır.

### VERİLƏN VƏDLƏR, GERÇƏKLİYƏ ÇEVRİLƏN İŞLƏR...

Dövlət başçımızın hər dəfə işğaldan azad olunmuş torpaqlara səfəri bir daha göstərir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlətimizin işğaldan azad olunmuş əraziləri qısa zaman kəsiyində bərpa etməsi üçün önündəki yeganə maneə zamandır. Zamanla bütün Qarabağ abadlaşacaq, buna isə heç kəs maneə ola bilməz.

"Şuşasız Qarabağ, Qarabağsız Şuşa yoxdur" deyən Ulu Öndər Heydər Əliyevin arzusunu da bu gün Prezident İlham Əliyev "Şuşasız işimiz yarımçıq qalar" sözü ilə əməlini üst-üstə düşməsinin reallığıdır. Bütövlükdə, bu Qalib Liderin "Əziz Şuşa, biz səni dirçəldəcəyik!" sözünün təsdiqidir. 2020-ci il noyabrın 8-də Qarabağın tacı olan Şuşamızın işğaldan azad edilməsi müjdəsini xalqa çatdırarkən Müzəffər Ali Baş Komandanımızın bildirmişdir: "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!".

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Ulu öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü günü Füzuli və Şuşa şəhərlərinə səfər etməsi və Şuşadan etdiyi müraciəti bir daha Qalib Liderimizin sözü ilə əməlinin üst-üstə düşdüyünün reallığıdır. Dövlətimizin başçısının da söylədiyi kimi, Heydər Əliyevin ən böyük arzusu Qarabağı yenidən azad görmək, ərazi bütövlüyümüzü bərpa etmək idi. "Bu gün atamın, bu günü görmədən həyatdan getmiş yüz minlərlə insanın, şəhidlərimizin ruhu şaddır. Biz onların ruhunu şad eləmişik", - deyə Prezident İlham Əliyev qeyd edib.

Prezident səfəri çərçivəsində görülən işlərlə tanış olaraq, iş icraçılarına vacib tövsiyələr verdi. Füzuli şəhərində 180 çarpayılıq xəstəxananın təməlinin qoyulması, "Azərişıq" ASC-nin şəhərin dayanıqlı və keyfiyyətli enerji ilə təchizatı baxımından əhəmiyyətli olan Şuşa Rəqəmsal İdarəetmə Mərkəzinin açılışı, Şuşa Realnı Məktəbində həyata keçiriləcək təmir-bərpa işlərinin davam etməsi, "Qarabağ", "Xarı Bülbül", "Shusha Boutique Hotel"lərində təmir-bərpa işləri, Mehmandarovların malikanə kompleksi, məşhur tarzən, bəstəkar və Azərbaycan tarını təkmilləşdirən sənətkar Sadıqcanın vaxtilə yaşadığı evin bərpası, Şuşadakı Şirin su hamamında işlərinin Heydər Əliyev Fondu tərəfindən həyata keçiriləcək. Bütün bu görülən işlər ulu öndərin arzuları idi.

Dövlət başçımız İlham Əliyev müraciətində Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısında misilsiz xidmətlər göstərdiyini deyərək bildirib ki, ulu öndər ölkənin ən çətin anlarında xalqın yanında olmuşdur, Azərbaycan xalqını böyük bəlalardan, faciələrdən xilas etmişdir. Dahi Öndər Heydər Əliyev Azərbaycan dövlətçiliyinin, Azərbaycan dövlətinin banisidir, onun qurucusudur. Öz həyatını xalqa həsr edən ümumilli liderin ən böyük arzusunun Qarabağı yenidən azad görmək, ərazi bütövlüyümüzü bərpa etmək olduğunu söyləyən ölkə rəhbərimiz diqqətə çatdırdı ki, onun dövlət quruculuğu, ordu quruculuğu sahələrində gördüyü işlər nəticəsində dövlətin əsasları yaradıldı və ölkəmiz inkişaf yoluna qədəm qoydu. Prezident dedi: "Əfsuslar olsun ki, atam bu günü görə bilmədi. Onun kimi yüz minlərlə azərbaycanlı bu günü görmədən həyatdan getdilər. Biz - onların davamçıları onların işini tamamladıq, atamın vəsiyyəti yerinə yetirildi. Bu gün atamın, bu günü görmədən həyatdan getmiş yüz minlərlə insanın, şəhidlərimizin ruhu şaddır. Biz onların ruhunu şad eləmişik... Bu gün Qarabağda və Zəngəzurda Azərbaycan bayrağı dalğalanır. Arxamdakı inzibati binanın damında Şuşanın alınmasından sonra Azərbaycan bayrağı qaldırılmışdır və binanın damından müzəffər Azərbaycan əsgərləri Şuşanın azad olunması ilə bağlı mənə raport vermişlər. Bu gün mayın 10-da mən yenidən ulu öndərin xatirəsinə Azərbaycan xalqının ehtiramını ifadə edərək Azərbaycan xalqını əmin etmək istəyirəm ki, bundan sonra da xalqımızın, dövlətimizin inkişafı, müstəqilliyimizin möhkəmləndirilməsi üçün əlimdən gələni əsirgəməyəcəm".

### "BİZ AZAD EDİLMİŞ BÜTÜN TORPAQLARI BƏRPA EDƏCƏYİK, BƏRPA EDİRİK"

Dövlət başçımız səfər zamanı bir daha növbəti mesajını verdi, bu mesaj sözü ilə əməlinin üst-üstə düşdüyünün göstəricisidir. Füzulidə və Şuşada bir neçə tədbirdə iştirak etdiyini, bütün bölgələrdə quruculuq-bərpa işlərinin sürətlə getdiyini, azad edilmiş bütün ərazilərdə genişmiqyaslı abadlıq-quruculuq və bərpa işləri aparıldığını vurğulayan ölkə rəhbəri, əslində, şəhərlərin, kəndlərin yenidən qurulduğunu bildirdi: "Çünki işğal dövründə düşmən bütün şəhər və kəndlərimizi yerlə-yeksan etmişdir, bütün tarixi abidələrimizi dağıtmışdır, Qarabağın, bölgənin, Qafqazın incisi olan Şuşa kimi şəhəri bərbad hala qoymuşdur. Biz - bu torpaqların sahibləri artıq qayıtmışıq və bu torpaq, bu səma bunu görür. Görür ki, hər gün inkişafla bağlı daha bir addım atılır. Hər gün daş üstə bir daş qoyulur. Biz azad edilmiş bütün torpaqları bərpa edəcəyik, bərpa edirik".

Bir övlad olaraq ümummilli liderin ad günündə Şuşada olmaqdan qürur duyan Azərbaycan Prezidenti müraciətində bildirdi: "Bu gün - mayın 10-da mən mütləq burada olmalı idim. ulu öndərin xatirəsinə öz ehtiramımı və Azərbaycan xalqının ehtiramını buradan ifadə etməli, bir daha deməli idim ki, biz bu torpaqlara, doğma torpaqlarımıza əbədi qayıtmışıq və burada əbədi yaşayacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!".

Bir sözlə, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Füzuli və Şuşa rayonlarına növbəti dəfə səfər etməsi ilə Azərbaycan xalqı bir daha əmin oldu ki, ən qısa zamanda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yenidən cənnət məkanına çevrilərək orada həyat canlanacaq.

*RƏFİQƏ KAMALQIZI*

## "Öhdəliklərini yerinə yetirmək üçün Ermənistana təzyiq göstərməyə çağırırıq"



İtkin düşənlərlə bağlı beynəlxalq öhdəliklərini yerinə yetirmək üçün Ermənistana təzyiq göstərməyə çağırırıq. SİA-nın məlumatına görə, bunu xarici işlər naziri Ceyhun Bayramov "Twitter" səhifəsində bildirib. "Bu gün Beynəlxalq İtkinlər Günüdür. Demək olar ki, 3 onillikdir ki, Ermənistanın təcavüzü nəticəsində itkin düşmüş 3890 azərbaycanlının taleyi məlum deyil. "Biz beynəlxalq öhdəlikləri yerinə yetirmək üçün Ermənistana təzyiq göstərməyə çağırırıq", - nazir yazıb.

## İndoneziyalı ekspert: "Laçının işğaldan azad olunması bizi çox sevindirir"



Qədim Azərbaycan torpağı olan Laçın şəhərinin işğaldan azad edilməsi və dost Azərbaycanın öz əraziləri üzərində nəzarəti bərpa etməsi bizi çox sevindirir. Bu bizim üçün çox ürəkaçan xəbərdir və Azərbaycan xalqını bu münasibətlə təbrik edirəm.

Bu sözləri AZƏRTAC-ın İndoneziya üzrə xüsusi müxbirinə müsahibəsində ANTARA agentliyinin sabiq redaktoru, İndoneziya Müsəlman Jurnalistlər Assosiasiyasının (PJMI) təsisçisi Məhəmməd Entoni deyib. İndoneziyalı ekspert bildirib ki, o, xalqımızın tezliklə sülh şəraitində yaşayacağına inanır: "İnanıram ki, bundan sonra heç bir qarşıdurma və müharibə olmayacaq. Azərbaycan və Ermənistan xalqları sülhsevər qonşu ölkələr kimi harmoniya şəraitində yaşayacaqlar. İki dövlət arasında olan problemlər sülh yolu ilə həllini tapacaq".

M.Entoni vurğulayıb ki, Azərbaycan və Ermənistan bütün dünyaya qarşılıqlı hörmət və tərəfdaşlıq münasibətlərinə əsaslanan nümunəvi əlaqələr qurmağa qadir olduqlarını nümayiş etdirə bilərlər. Bu isə yeni nəslin uzaqgörən liderlərin miras qoyacağı sülh və sabitlik şəraitində yaşamasına imkan yaradar.

# Qarabağ separatçıları nəyi bölə bilmirlər?

*Nə qədər çox inad edəcəklərsə, Yaşma, Komando və Yarasa üçün onlarla "təlim-tərbiyə" işlərini aparmaq bir o qədər rahat olacaq*

**Rusiya sülhməramlıları kontingentinin (RSK) müvəqqəti yerləşdikləri ərazilərdə, xüsusilə Xankəndidə separatçılar arasında kəskin ziddiyyətlər yaşanmaqdadır. Belə ki, avqustun əvvəlindən, daha dəqiq desək, "Qisas" əməliyyatı keçirildikdən, eləcə də Laçın şəhəri daxil olmaqla Zabux və Sus kəndlərinin Azərbaycanın yurudiksiyası altına keçməsindən sonra başlayan gərginliklər pik həddinə çatıb.**

SİA-ya daxil olan məlumata görə, iki tirəyə bölünmüş erməni separatçılarının bir qismi kvazidövlətin quldur çetesinin istefa verməsini tələb edir, ikincilər isə birinciləri təxribatçılıqda ittiham etməklə istefaya getməyəcəklərini deyirlər.



### Xankəndinin mərkəzi meydanına 1500-ə qədər insanın toplandığı bildirilir

Bu arada, "Kavkazskiy uzel" RSK-nın müvəqqəti yerləşdiyi Azərbaycanın Qarabağ regionundakı yerli mənbələrinə istinad edərək yazır ki, Araik Arutyunyana qarşı çıxan müxalifətçi separatçılara Tiqran Petrosyan adlı "pariya sədri" rəhbərlik edir və o, əsasən İrəvandan idarə olunur. Məhz bu şəxs ötən gün Arutyunyanla görüşməyə nail olsa da, istefa tələbinə qarşılıq olaraq "yox" cavabı alıb. "Arutyunyan üçün insanların tələləri dəyərsizdir, "ölkənin və vətəndaşların" gələcəyinə tüpürmək belə istəmir", deyə müxalifətçi-separatçı Petrosyan bildirib.

Maraqlıdır ki, onun Araiklə görüşündən sonra Xankəndinin mərkəzi meydanına 1500-ə qədər insanın toplandığı da bildirilir. Etirazçıların bir neçəsi də Tiuqran Petrosyanın tələblərinə dəstək göstərdiklərini deyərək bildiriblər ki, kvazidövlətin rəhbərliyi bütünlüklə istefaya getməlidir və s.

### Müxalifətçi separatçılar quldur separatçılara...

Məsələn, Armen Sarqsyan adlı separatçı deyir: "Ölkəni" şərəfli adamlar idarə etməlidir, yalançılar, dezertirlər və savadsız insanlar deyil". Vigen Poqosyan adlı digər separatçı isə bildirir: "Kimlər ki, 2020-ci il müharibəsində gizlənərək öz oğullarını da gizlədirdilərsə, onlar heç bir vəzifədə olmalı deyillər".

Raisa Hayrapetyan adlı qadın separatçı isə bildirir ki, Laçın şəhəri və Zabuxdan sonra "hakimiyyət" digər yaşayış məntəqələrini də təslim etməyə davam edəcək: "Dağlıq Qarabağ hakimiyyəti" insanların "artsaxdan" getmələri üçün mümkün olan hər şeyə əl atırlar ki, "vətənimizi" Azərbaycana təslim etsinlər. Biz gərək bunun qarşısını alaq".

Göründüyü kimi, məhz belə bir yerdə birbaşa erməni separatçılarına və daşnak xislətlilərinə aid olan qədim və ənənəvi atalar sözü növbəti dəfə yada düşür - qozbeli qəbir düzəldər. 44 günlük müharibədən və son proseslərdən nəticə çıxara bilməyən, sanki özləri-özlərinə qəsd etmək ehtirasında olduqlarını nümayiş etdirən bu sadomazoxistlər tayfası reallığı dərk etmək yerinə hələ də öz köhnə, iy verən "miatsum" adlı yuxularından ayıla bilmirlər.

### Bir-birlərini qırıb-çatmaqdansa, yaxınlaşan acı aqibətləri barədə düşünüb-ayılsınlar

Onlar hələ də anlamılrlar ki, kim olursaolsun, istər Araik və komandası, istərsə də onların istefasını tələb edən digər separatçılar - belələrinin hər biri tək-tək Azərbaycan torpaqlarından köklü şəkildə rədd ediləcəklər. Yaxud, müvafiq hüquqi cəzalarını alacaqlar. Ona görə də, bir-birlərini qırıb-çatmaqdansa, yaxınlaşan acı aqibətləri barədə düşünüb-ayılsınlar.

Bütövlükdə isə fakt budur ki, separatçılarda məğlubiyyətə uğramışlıq və panik əhval-ruhiyyəsi get-gedə artır. Və belələri nə qədər çox inad edəcəklərsə, Yaşma, Komando və Yarasa üçün onlarla "təlim-tərbiyə" işlərini aparmaq bir o qədər rahat olacaq. Görünür, onlara növbəti və yeni dərslərin keçilməsinin vaxtı çatıb. Artıq küçədə sentyabr ayıdır...

***Rövşən RƏSULOV***

## "Narkomaniyanın sağlamlığa və ailə dəyərlərinə zərərli təsiri" mövzusunda maarifləndirici tədbir keçirilib







Avqustun 30-da Abşeron rayon Heydər Əliyev Mərkəzində Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 22 iyul tarixli, 1334 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nın icrası ilə əlaqədar, Yeni Azərbaycan Partiyası Mərkəzi Aparatının, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun və "Azərbaycan Televiziyası və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin 2022-ci ilə dair imzalanmış birgə Tədbirlər Planına uyğun olaraq, YAP Mərkəzi Aparatının və Abşeron rayon təşkilatının birgə təşkilatçılığı ilə "Narkomaniyanın sağlamlığa və ailə dəyərlərinə zərərli təsiri" mövzusunda maarifləndirici tədbir keçirilib.

Tədbirdə çıxış edən YAP Abşeron rayon təşkilatının sədri Abbas Əliyev, YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsi müdirinin müavini Zəkiyyə Musayeva, Abşeron Rayon İcra Hakimiyyətinin başçısının İctimai-siyasi və humanitar məsələlər üzrə müavini, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə rayon Komissiyasının sədri Gülnar Rəhimova, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun Milli İnformasiya sektorunun müdiri Raqif Allahverdiyev, Səhiyyə Nazirliyi Respublika Narkoloji Mərkəzinin həkim-narkoloqu Rövşən Kərimli, "Azərbaycan Televiziyası və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin əməkdaşı Röya Bənənyarlı, Abşeron Rayon Polis İdarəsinin Yetkinlik yaşına çatmayanlarla profilaktiki işin təşkili qrupunun baş inspektoru, polis mayoru Elbrus Əhmədov, Abşeron rayon Ağsaqqalar Şurasının sədri Nadir Ağayev, Əməkdar müəllim, Abşeron rayonu Saray Qəsəbə 3 nömrəli tam orta məktəbinin direktoru Teyyubə Hüseynova, Vətən müharibəsi qazisi Ülvi Qədir və digərləri müntəzəm olaraq maarifləndirici tədbirlərin keçirilməsinin vacibliyini vurğulayıblar. Qeyd olunub ki, müasir Azərbaycan ailəsinin qarşılıqlı hörmət, məhəbbət və sağlam təməllər üzərində qurulmasının əsas səbəblərindən biri də tarixin süzgəcindən keçmiş ailə dəyərlərinin yaşadılması və nəsildənnəslə ötürülməsidir. Ailə sağlam cəmiyyətin, güclü dövlətin formalaşması və inkişafında mühüm vasitədir. Sağlam ailə mühitində tərbiyə alaraq böyüyən gənclər isə xalqımızın milli sərvəti, ölkəmizin gələcəyidir. Məhz bu baxımdan milli-mənəvi dəyərlərimizə zidd olan narkomaniyaya qarşı mübarizədə hər kəs səfərbər olmalı, zərərli və yad meyillərin qarşısının alınması istiqamətində əlindən gələni əsirgəməməlidir.

Sonda mövzu ətrafında tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb, zərərli vərdişlərin mənfi təsiri barədə geniş məlumat verilib.

Tədbir zamanı iştirakçılara Dövlət Komissiyasının İşçi Qrupu tərəfindən hazırlanmış əyani vəsaitlər, bukletlər ("Narkotiklər haqqında həqiqəti bilin" adlı yaddaş kitabçaları və.s) paylanılıb.

## Selçuk Bayraktar: Qardaş Azərbaycandan, işğaldan azad edilən azad Şuşadan salam gətirmişəm



**Qardaş Azərbaycandan, işğaldan azad edilən azad Şuşadan salam gətirmişəm.**

Bu gün tariximizin ən vacib günlərindən birini birlikdə qeyd edirik. Tam 100 il əvvəl türk milləti əsirliyə boyun əymədən Samsunda başladılan Qurtuluş müharibəsinə imza atdı. 30 avqust-Zəfər bayramımız münasibətilə hər birinizi təbrik edir, azad Vətəni bizə bəxş edən ulu öndərimiz Mustafa Kamal Atatürk başda olmaqla onun bütün silahdaşlarını, Vətən üçün mübarizə aparan ölkəmizin hər bir fərdini dərin hörmət və rəhmətlə yad edirik.

Bu fikirləri Türkiyədə keçirilən "TEKNOFEST-2022 Qara Dəniz"in final mərhələsinin açılış mərasimində çıxış edən "Baykar Makine" şirkətinin texniki direktoru Selçuk Bayraktar ifadə edib.

Selçuk Bayraktar bildirib ki, tam 17 il əvvəl ilk təyyarəmizin prototipini hazırlayırdıq. O gündən indiyədək gecə gündüz demədən işlədik. Bu dövr ərzində müxtəlif maneələrlə üzləşdik. Lakin heç bir zaman təslim olmadıq. Bununla onu demək istəyirəm ki, heç bir zaman təslim olmayın.

Güclülərin qalib gəldiyi yeni dünyada bir çox ölkələrdə olduğu kimi, Qarabağın yarasının da qəlblərdə hələdə təzə olduğunu deyən Selçuk Bayraktar qeyd edib ki, bizim təməl məqsədimiz dünyanı ədalətin hökm sürdüyü bir hala gətirməkdir. Yüksək texnologiyalar istehsal etmək hər şeydən əvvəl millətimizə verəcək ən böyük töhfədir. Bundan beş il əvvəl Türkiyədə texnologiya yarışmalarına yüzlərlə gəncimizin qatılacağını söyləsəydik ən sadə dil ilə desək bizə gülərdilər. İndi isə Türkiyədə keçirilən "TEKNOFEST"lərə 600 mindən artıq gəncimiz müraciət edir.

# İtkin düşmüş minlərlə azərbaycanlının taleyi bu günə qədər naməlumdur

Dünən Bakıda Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası və Beynəlxalq Qızıl Xaç Komitəsinin təşkilatçılığı ilə Beynəlxalq İtkinlər Günü ilə əlaqədar "İtkin düşmüş şəxslərin şəxsiyyətinin müəyyən edilməsi - Humanitar yanaşma" mövzusunda konfrans keçirilib. Qeyd olunub ki, Azərbaycan Respublikasının Əsir və itkin düşmüş girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası Ermənistanın Azərbaycana hərbi təcavüzü ilə bağlı yaranmış humanitar böhranın nəticələrinin aradan qaldırılması məqsədilə 1993-cü ildə yaradılıb. Dövlət Komissiyası yarandığı vaxtdan etibarən Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq humanitar hüquq normalarına uyğun olaraq Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK) ilə sıx əməkdaşlıq edir.



*Beynəlxalq İtkinlər Günü 2010-cu il dekabrın 21-də BMT-nin Baş Məclisi tərəfindən təsis edilib*





### Azərbaycan dünyada itkin düşmüşlərlə bağlı ən ağrılı problemlərlə üzləşən ölkələrdəndir

Tədbirdə vurğulanıb ki, Azərbaycan dünyada itkin düşmüşlərlə bağlı ən ağrılı problemlərlə üzləşən ölkələrdəndir. I Qarabağ müharibəsi zamanı Ermənistanın təcavüzü və işğalçılıq siyasəti nəticəsində itkin düşmüş minlərlə azərbaycanlının taleyindən bu günə qədər də xəbər yoxdur. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində I Qarabağ müharibəsində 3890 nəfər Azərbaycan vətəndaşı itkin düşmüş şəxs kimi Dövlət Komissiyasında qeydiyyata alınıb. Onlardan 3171 nəfəri hərbçi, 719 nəfəri mülki şəxsdir. Mülki şəxslər içərisindən 71 nəfəri yetkinlik yaşına çatmamış uşaq, 267 nəfəri qadın, 326 nəfəri yaşlı insanlar olub. İtkin düşmüş şəxslərin ümumi sayından 872 nəfər, o cümlədən 29 uşaq, 98 qadın və 112 qoca əsir-girov götürülmüş və ya işğal edilmiş ərazilərdə qalıb. Sonradan azad olunmuş əsir və girovlar həmin şəxsləri sağ gördüklərini təsdiq ediblər.Ermənistan münaqişənin bütün dövrü ərzində bu şəxslər barədə məlumatları beynəlxalq təşkilatlardan gizlədib, onların sonrakı taleyi barədə məlumat verməkdən yayınıb. I Qarabağ müharibəsində itkin düşmüş şəxslərdən 54 nəfəri Ermənistan tərəfində saxlanıldıqları vaxt sağ ikən onlarla müxtəlif vaxtlarda BQXK-nın nümayəndələri görüş keçirib. Sonradan onlardan 17-sinin meyiti təhvil verilib, 33-nün ölümü barədə məlumat verilsə də, onların meyitləri qaytarılmayıb, 4-ü barədə isə ümumiyyətlə heç bir məlumat almaq mümkün olmayıb. I Qarabağ müharibəsi dövründə 1480 nəfər azərbaycanlı erməni əsir-girovluğundan azad edilib.2008-ci ilin aprel ayında BQXK-nın Azərbaycandakı Nümayəndəliyi ilə Dövlət Komissiyası arasında imzalanmış "İtkin düşmüş şəxslər haqqında Ante Mortem məlumatların toplanması və mərkəzləşdirilmiş şəkildə idarə olunması üzrə" çərçivə sazişinə əsasən, 2014-cü ildən etibarən itkin ailələrindən bioloji (DNT) nümunələrin toplanması işinə başlanıb. Ötən müddət ərzində 3315 itkinin ailə üzvlərindən 10309 bioloji nümunə toplanıb. 2021-ci ilin noyabr ayından etibarən toplanmış bioloji nümunələrdən DNT profillərinin çıxarılması işinə başlanıb. Bu məqsədlə hazırkı vaxta qədər 1024 bioloji nümunənin hər biri üzrə profillər çıxarılıb. Münaqişə zamanı itkin düşmüş şəxslərin taleyinin müəyyən edilməsinə mane olan əsas səbəb 2020-ci ilin noyabr ayının 10-dək Ermənistanın Azərbaycan ərazilərini işğalı faktı olub. Hazırkı şəraitdə itkinlərin taleyinin müəyyən edilməsinə mane olan əsas faktlar isə Ermənistanın dəfn yerləri barədə məlumatları təqdim etməməsi və işğaldan azad edilmiş ərazilərdə çoxsaylı minaların olmasıdır.

### Ermənistan tərəfi I Qarabağ müharibəsində itkin düşmüş şəxslərə aid məzar yerləri barədə məlumatları təqdim etmir

Yüksək səviyyəli görüşlərdə və müxtəlif platformalarda dəfələrlə qaldırılmasına və müzakirə edilməsinə baxmayaraq, Ermənistan tərəfi I Qarabağ müharibəsində itkin düşmüş şəxslərə aid məzar yerləri barədə məlumatları təqdim etmir. 44 günlük Vətən müharibəsində əldə edilmiş zəfərdən sonra yaranmış yeni situasiyada I Qarabağ müharibəsində itkin düşmüş şəxslərin sonrakı taleyinin aydınlaşdırılması ilə bağlı bir sıra tədbirlər həyata keçirilib. 2021-ci ilin fevral-2022-ci ilin aprel ayına qədər işğaldan azad edilmiş Şuşa rayonu, Daşaltı kəndi, Xocavənd rayonu, Edilli kəndi, Xocalı rayonunun Fərrux və Daşbaşı kəndləri ərazisində müəyyən edilmiş kütləvi məzarlıqlarda aparılmış ekshumasiya zamanı, həmçinin, işğaldan azad edilmiş Ağdam, Şuşa, Göygöl, Tərtər, Füzuli, Kəlbəcər və Zəngilan rayonları ərazilərdə tikinti-quruculuq işləri aparılarkən 82 şəxsə aid olduğu ehtimal edilən meyit qalıqları müəyyən edilərək götürülüb. I Qarabağ müharibəsi zamanı şəhid olmuş və Respublikanın 13 şəhər və rayonunun ərazisində yerləşən 21 qəbiristanlıqdakı 191 naməlum şəhid məzarından 183 meyit qalığı ekshumasiya edilib. BQXK ilə çoxillik əməkdaşlıqla yanaşı, Dövlət Komissiyası qarşıda duran vəzifələrin həllində yeni imkanlar açacağına ümid edərək cari ilin aprel İtkin düşmüş şəxslər üzrə Beynəlxalq Komissiyanın nümayəndələri ilə əməkdaşlığa dair Protokol imzalayıb. Hazırda Vətən müharibəsində itkin düşmüş 6 Azərbaycan hərbçisinin axtarışı davam etdirilir.

### Azərbaycana qarşı hərbi təcavüzü zamanı Ermənistan tərəfindən bir çox beynəlxalq hüquq normaları kobud şəkildə pozulub

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü zamanı Ermənistan tərəfindən bir çox beynəlxalq hüquq normaları, o cümlədən beynəlxalq humanitar hüququn tələbləri kobud şəkildə pozulub. Müharibə qaydalarına zidd olaraq, mülki əhali qorunmamış, əksinə, onlar girov götürülmüş və bir çox hallarda öldürülüb. Bir çox hallarda əsir və girovlara ağlasığmaz işgəncələr verildikdən sonra onlar öldürülüb və işgəncələrin izlərinin itirilməsi məqsədilə onların meyitləri belə Azərbaycan tərəfinə təqdim edilməyib. Belə ki, Ermənistan hərbiçilərinin məzarı üzərində və "erməni soyqırımı"nın anım günlərində azərbaycanlı əsir-girovların öldürülməsi, əsir-girovların antitürk, antiazərbaycan ideoloji-təbliğat vasitəsinə çevrilməsi, nifrət hissinin artırılması məqsədi ilə onların mülki əhalinin ixtiyarına verilərək meydanlarda nümayişkaranə şəkildə alçaldılması və təhqir edilməsi, təhqiredici vəziyyətə salınaraq yaşayış məntəqələrində gəzdirilməsi, onların müxtəlif telekanallara çıxarılaraq öz ölkəsinin əleyhinə müsahibələr verməsinə məcbur edilməsi, əsir və girovlardan qul kimi istifadə olunması, onların işğal olunmuş yaşayış məntəqələrində tarixi abidələrin, qəbiristanlıqların, evlərin və inzibati binaların sökülməsində və talan olunmasında, başqa sözlə vandalizm aktlarında istifadəsi və zərərli istehsal sahələrində işlədilməsi, yaşına və cinsinə məhəl qoyulmadan onlara dəhşətli işgəncələr verilməsi və qeyri-insani şəraitdə saxlanılması, əsir və girovların Ermənistanda ağır cinayətlər törətmiş erməni əsilli şəxslərlə birlikdə həbsxanalarda saxlanılması, Cenevrə Konvensiyalarının ziddinə olaraq müxtəlif məlumatların əldə olunması üçün dəhşətli işgəncələrin müşayiəti ilə qeyri-qanuni sorğu-suallara cəlb olunması, əsir və girovların müxtəlif tibbi və digər eksperiment obyektinə çevrilməsi, bədənlərinə şüalar verilməsi və tərkibi məlum olmayan maddələr yeridilməsi kimi təzyiqlərədiblər.

### Ermənistan tərəfi itkin düşmüş Azərbaycan vətəndaşlarının tapılması ilə bağlı əməkdaşlıq etmir

Aydındır ki, əsir və girov götürdüyü insanlara beynəlxalq hüquq normalarına zidd olaraq davranan və əksər hallarda onları vəhşiliklə öldürən Ermənistan tərəfi öz cinayətkar əməllərinin ortaya çıxmasının qarşısını almaq məqsədilə Azərbaycan vətəndaşlarının tapılması ilə bağlı əməkdaşlıq etmir. 1993-cü ilin aprel ayında Kəlbəcər rayonunun işğalı zamanı Azərbaycanın aidiyyəti dövlət qurumlarının radio əks-kəşfiyyat xidməti tərəfindən Ermənistanın Azərbaycan xalqına qarşı belə hərbi cinayətlərindən biri ifşa edilib. Əldə edilmiş materialda Ermənistanın Basarkeçər rayonundakı qərargah radiostansiyasından Kəlbəcər döyüş bölgəsindəki baş radiostansiyaya bölgədəki bütün səyyar radiostansiyalara təcili əmr verilib ki, əsir və girov götürülmüş Azərbaycan vətəndaşları, o cümlədən qocalar, qadınlar və uşaqlar təcili məhv edilib, basdırılsın. Məqsəd isə törətdikləri cinayətlərin izlərinin həmin vaxt döyüş bölgəsinə gələn beynəlxalq nümayəndə heyətindən gizlətmək olub. Həmçinin, faktlar var ki, öz yaxınlarını axtaran qohumlar aldadılaraq girov götürülmüş və ya öldürülüb.

### Beynəlxalq humanitar hüquq normalarının Ermənistan tərəfindən pozulmasının ən qabarıq nümunəsi Xocalı soyqırımıdır

Baş verən hadisələr onu deməyə əsas verir ki, beynəlxalq humanitar hüquq normalarının Ermənistan tərəfindən pozulmasının ən qabarıq nümunəsi Xocalı soyqırımıdır. 1992-ci il fevralın 26-da Xocalı şəhəri Ermənistan tərəfindən tam mühasirəyə alaraq yerlə yeksan edilib, dinc əhali pusquya salınaraq onlara divan tutulub. 613 nəfər, o cümlədən 63 uşaq, 106 qadın, 70 qoca vəhşicəsinə öldürülüb. 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki, 130 uşaq valideynlərindən birini itirib. Aralarında 76 uşağın olduğu 487 nəfər yaralanıb. Xocalı soyqırımı zamanı yüzlərlə azərbaycanlı əsir və girov götürülüb. Onlardan 196 nəfərin, o cümlədən 36 nəfər uşaq, 65 nəfər qadının taleyi naməlum olaraq qalmaqdadır.Bir sözlə, hər bir dövlətin qeyd edilən cinayətlər və insan hüquqları pozuntularının təhqiqatının aparılması, günahkarların məsuliyyətə cəlb edilməsi, belə pozuntuların təkrar olunmasının qarşısının alınması, eləcə də qurbanların ailələrinin müvafiq hüquqlarının təmin edilməsi ilə bağlı öhdəlikləri mövcuddur. Bu kontekstdə, Azərbaycan da itkin düşmüş vətəndaşlar və onların ailə üzvləri ilə bağlı beynəlxalq hüquq və milli qanunvericiliyin tələblərinə uyğun olaraq bütün müvafiq tədbirləri həyata keçirir. Ölkədə Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası fəaliyyət göstərir. Komissiya əsir və girov götürülmüş şəxslərin vətənə qaytarılması, itkin düşənlərin axtarılması ilə əlaqədar tədbirlər həyata keçirir, bu sahədə müvafiq dövlət orqanlarının, ictimai və beynəlxalq təşkilatların fəaliyyətini əlaqələndirir, əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlar haqqında məlumatları toplayır, bu məlumatların qeydiyyatını və sistemləşdirilməsini təmin edir və Komissiyaya həvalə edilən digər vəzifələri həyata keçirir.Azərbaycan beynəlxalq səviyyədə itkin düşmüş və girov götürülmüş insanlar məsələsinə qlobal diqqəti cəlb etmək məqsədilə iş aparır. Azərbaycanın təşəbbüsü ilə BMT Baş Assambleyasında "İtkin düşmüş şəxslər" ilə bağlı iki ildən bir qətnamə qəbul edilir. Azərbaycan, eyni zamanda, BMT-nin Qadınların Statusu üzrə Komissiyasında qəbul edilən "Silahlı münaqişələr zamanı girov götürülmüş qadınlar və uşaqların azad edilməsi haqqında" adlı qətnamənin əsas təşəbbüskarıdır.

Bir sözlə, xalqımız ona da bir daha əmindir ki, əsir-girov götürülmüş, itkin düşmüş vətəndaşlarımızın taleyinə aydınlıq gətirilməsi yönümündə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına uyğun olaraq, itkin vətəndaşlarımızın axtarışı üzrə intensiv və təxirəsalınmaz tədbirlərin bundan sonra da davamlı və operativ şəkildə həyata keçiriləcəyinə inanır.

**RƏFİQƏ HÜSEYNOVA**

TƏRS BAXIŞ+FOTOFAKT

# Düşmən çörəyi ilə bəslənib, özlərini satışa çıxaranlar

**Məlum olduğu kimi, Ağdam təmsilçisi və Azərbaycan futbolunun qüruru - Qarabağ futbol klubu yoluna Avropa Liqasının qrup mərhələsində davam edəcək. Komanda ilk oyununu Fransanın Nant klubu ilə keçirəcək. Bəri başdan dünyaya səs salan Qarabağımıza uğurlar və sarsılmaz qələbə ruhu arzu edirik.**

Lakin məsələ yalnız bunda deyil. Məlum olduğu kimi, milli klubumuz zaman-zaman bir sıra Avropa ölkələrində - xüsusilə, anti-Türkiyə və anti-Azərbaycan xarakterli lobbi təşkilatlarının çoxluq təşkil etdikləri ölkələrin klubları ilə görüşlərində arzuolunmaz hallarla qarşı-qarşıya qalıb. Misal üçün, Belçika, Fransa kimi ölkələrdə keçirdiyi qarşılaşmalarda açıq ermənipərəstlik mövqeyi göstərən ayrı-ayrı fanat qrupları, habelə onlara maliyyə buraxan erməni təşkilatları istər ərazi bütövlüyümüzə, istərsə də dövlətimizə və bayrağımıza qarşı həyasızcasına dil uzadıblar.




Məhz düşmənin altına yıxılmaqla, özlərini düşmənə satmaqla siyasi fahişəlik prinsiplərini bayraq edən bu kimi mənfurlar indi də Azərbaycan bayrağını Avropa Liqasının qrup mərhələsində qaldıracaq Qarabağ futbol klubunun qarşıdan gələn oyununa tərəf kirli, murdar kapmaniyaya start veriblər




## Məhz Qarabağ klubu, habelə Azərbaycan azarkeşləri, həmçinin digər ölkələrdəki Qarabağsevər fanklubları öz əzmkar mübarizələri, qələbələri ilə lazımi cavablarını veriblər!




Lakin söz yox ki, bütün bu kimi faşizm qığılcımlarına yerinə, artıqlaması ilə cavablar verilib, bundan sonra da veriləcək. Eyni zamanda, idmanın siyasiləşdirilməsi faktı da göz önündə olub və əlbəttə ki, bənzər ürəkbulandırıcılıqlara məhz Qarabağ klubu, habelə Azərbaycan azarkeşləri, həmçinin digər ölkələrdəki qarabağsevər fanklubları öz əzmkar mübarizələri, qələbələri ilə lazımi cavablarını veriblər.

Ancaq ən təəssüfedici və hiddət yaradan məqamlardan biri də mövcuddur! Onlar, Avropa ölkələrində "siyasi mühacir" adı altında oturma izni alıb Azərbaycan dövlətinə qarşı ermənilərdən də betər düşmənçilik edən xainlər və satqınlar yığnağıdır. Söyüş və təhqirlərlə, ləyaqətə və şərəfə zidd olan davranışları ilə sözdə blogerlik edən, əslində isə aşkar düşmən çörəyi ilə bəslənən belələri əllərinə düşən hər imkandan maksimum yararlanaraq növbəti qazanc mənbəyi əldə etməkdən belə çəkinmirlər. Bu haqda yüzlərlə yazı və məqalələrlə çıxışlar edilib, faktlar, dəlillər artıqlaması ilə ortaya qoyulub.

Bəli, məhz düşmənin altına yıxılmaqla, özlərini düşmənə satmaqla siyasi fahişəlik prinsiplərini bayraq edən bu kimi mənfurlar indi də Azərbaycan bayrağını Avropa Liqasının qrup mərhələsində qaldıracaq Qarabağ futbol klubunun qarşıdan gələn oyununa tərəf kirli, murdar kapmaniyaya start veriblər.

## Məhəmməd Mirzəli adlı şərəf hissindən uzaq ünsür dərhal erməni baronlarının sifarişlərindən bəhrələnərək anti-kampaniyaya start verib




Yuxarıda da qeyd edildiyi kimi, Qarabağ klubu Fransanın Nant klubu ilə qarşılaşacaq və məhz bu məlumat üzə çıxandan sonra adıçəkilən şəhərdə yaşayan və düşmən çörəyi ilə bəslənən Məhəmməd Mirzəli adlı şərəf hissindən uzaq ünsür dərhal erməni baronlarının sifarişlərindən bəhrələnərək anti-kampaniyaya start verib. Vaxtilə Ermənistanın Azərbaycan xalqına və dövlətinə qarşı terrorçuluq siyasətinə milyonlarla sərməyə buraxan erməni lobbisi də həmin andan istifadə etməklə Məhəmməd Mirzəlini siyasi fahişə olaraq necə deyərlər, satın alıb!

Əbəs deyil ki, Məhəmməd Mirzəli sosial şəbəkələrə çıxaraq Azərbaycan dövlətini "terrorçu" adlandırır, üstəlik bir müddət əvvəl özü kimilər tərəfindən xuliqanlıq hücumuna məruz qaldığı vaxtının (bıçaqlanaraq döyülməsi) fotosunu paylaşaraq bütün bunları hakimiyyətin üzərinə atmağa cəhd edir. Söz yox ki, ən kiçik detalı, yaxud məişət hadisəsini belə özləri üçün "qarşı tərəfə güclü təzyiq vasitəsi" hesab edən belə siyasi fahişələr bir daha daxillərindəki və zahirlərindəki ucuzluqlarını, satın alınmağa hazır olduqlarını sərgiləyirlər - istənilən cinahların altlarına yıxılmaları ilə siyasi eyş-işrət yaşamağa olan hədsiz meyllərini nümayiş etdirməklə, yekunda isə öz qiymətlərini qaldırmaqla məşğuldurlar!




## Düşmən saytları və sosial şəbəkələri bu mənfur ünsürün şivənçiliklərini bəh-bəhlə paylaşırlar

Elə də uzağa getməyərək, erməni sosial şəbəkə və saytlarının Məhəmməd Mirzəlinin şivənçiliklərini necə bəh-bəhlə paylaşmalarını bir daha nəzərdən keçirək. Nəzərdən keçirək və bir daha əmin olaq ki, bu kimi siyasi fahişələrin əslində Azərbaycandan kənarda yaşamaları bir tərəfdən də yaxşı bir haldır.

Çünki onların murdar, idbar, iyrənc və xain nəfəsləri burada, ölkəmizdə, Azərbaycanda olan sağlam cəmiyyəti zəhərləmir. Nə zamansa ya Məhəmməd Mirzəli olsun, ya da onun kimi digərləri - onların hər biri mütləq, amma mütləq öz əməllərinə görə cavab verməli olacaqlar. Hələlik isə qoy düşmən çörəyi yeməklə məşğul olsunlar. Zaman gələcək, yedikləri həmin haram tikələri Bakı əhli demişkən, "piltə-piltə" burunlarından qaytaracaqlar. Əmin olsunlar!

***Rövşən RƏSULOV***



# Dövlətçiliyi dağılan Ermənistan





**Apardığı yanlış siyasət səbəbindən "müttəfiqlər" adlandırdıqları dövlətlər də Ermənistandan üz döndərir. Hətta bu ölkəyə etibar edilmədiyi, inanılmadığı da aydın şəkildə təzahür edir. Təkcə ruslar deyil, belaruslar və qazaxlar kimi digər "müttəfiq" hesab etdikləri də ermənilərə zərrə qədər inanmırlar. Belə bir inamsızlığı, onlara etibar edilmədiyini ermənilər hətta hörmətsizlik hesab edirlər.**

Son zamanlar daha çox milli mənlik, xalqın maddi və mənəvi dəyərləri haqqında spekulyasiyalar Ermənistan cəmiyyətində yenə də qızışdırılıb. Özü də süni surətdə qızışdırılıb və burada da şəxsi maraqlar ön plandadır. Məsələ burasındadır ki, başqa xalqlardan və dövlətlərdən hörmət gözləyən, hətta az qala tələb edən ermənilər özləri-özlərinə hörmət etmirlər. Əks halda, özlərini bu şəkildə aparmaz, hadisələrə adekvat reaksiya verər, reallıqlarla, regionda yaranan yeni reallıqlarla barışar, buna müvafiq addımlar atardılar.

Bir neçə il əvvəl Ermənistan ictimaiyyəti elə hesab edirdi ki, Koçaryan-Sarkisyan qruplaşmasının boyunduruğunu ataraq, əsl demokratik cəmiyyət quruculuğu yoluna qədəm qoyur. Elə zənn edirdilər ki, müttəfiqləri və tərəfdaşları ilə münasibətlərə yenidən baxmaqla Ermənistan çox güclü bir dövlətə çevriləcək və hər bir ölkə də onlara hörmət edəcək, onlarla hesablaşacaq. İndi artıq yanıldıqlarını etiraf etməkdən çəkinməyən ermənilər təəssüflə qeyd edirlər ki, bu baş vermədi və düşündükləri kimi olmadı. Bunun da təbii ki, əsaslı səbəbləri var və başlıca səbəb Ermənistanın doğru sol seçməməsi, işğalçılıq meyillərindən əl çəkməməsi, qonşu dövlətlərlə sülh şəraitində yaşamaması, normal qonşuluq siyasəti yürütməməsi, regionun təhlükəsizliyinə təhdid yaratmasıdır. Belə bir mövqedə olan ölkənin hörmət, etibar qazanmağa ümid etməsi çox absurd səslənir, hansı ki, bunu ermənilər özləri də etiraf etməyə başlayıblar.

Ermənilər artıq etiraf edirlər ki, bu gün Ermənistanda həyəcan təbili çalmaq olar. Etiraf edirlər ki, erməni dövlətçiliyinin dağılması an məsələsidir. Açıq şəkildə bəyan olunur ki, erməni xalqının faciəsi, onun alçaldılması, aşağılıq kompleksinin yaranması ilə müşayiət olunur. Diqqət etdikdə görürük ki, hər bir erməni aşağılanmaq, hörmətsizliklə daim qarşılaşmaq qorxusu ilə yaşayır. Bu isə o deməkdir ki, ermənilər öz əməlləri müqabilində bunu, yəni hörmətsiziklə qarşılanacaqlarını gözləyirlər, çünki yox dərəcəsində belə olan etibarı da tamamilə itirdiklərinin fərqindədirlər. Fərqindədirlər ki, təkcə indiki zamanda deyil, hətta əvvəlki onilliklərdə belə Koçaryanın və Sarkisyanın hakimiyyəti altında olanda belə praktiki olaraq suverenliklərini, müstəqilliklərini itiriblər. Yaxşı bilirlər ki, öz fikri, öz iqtisadiyyatı, öz dəyərləri olmayan bir ölkə kimi Rusiyanın müstəmləkəsinə çevriliblər, bunu açıq-aşkar bəyan etməsələr də.

Hələ Sarkisyanın dövründə guya konstitusiya dəyişikliklərinə başlayan prezident əvvəlcə səlahiyyətlərini uzatmayacağına söz verəndə yalana, cəmiyyəti aldatmağa rəvac verdi. Belə yalanlarla əvvəlcə öz xalqının mənəviyyatına, hissiyatına, dövlətinin konstitusiyasına tüpürdü, sonra da beynəlxalq ictimaiyyətə saymazlıq nümayiş etdirdi. Bununla təkcə Sarkisyan rejimi deyil, ümumiyyətlə, bütün Ermənistan bütün dünyanın gülüş hədəfinə, lağ hədəfinə çevrildi. Bütün dünya Ermənistanın necə bir ölkə olduğunu, yalanlarla, uydurmalarla, miflərlə öz-özünü belə aldatdığını yaxşı bilir. Yaxşı bilir ki, hər zaman böyük xülyalara düşən, keçmişi haqqında qondarma əfsanələr uyduran bir ölkənin əslində mahiyyəti bir şey deyil və bu ölkə haqqında söz edərkən, suverenlikdən danışmaq mümkün deyil. Əksinə, Ermənistan təkcə indi deyil, öz ənənəsinə uyğun olaraq hər zaman hansısa dövlətin müstəmləkəsi kimi mövcud olub.

Paşinyanın dövründə də demək olar ki, heç nə dəyişməyib. O, hakimiyyəti ələ keçirərkən çox şeylər vəd edib. Əslində isə, verdiyi vədlərin demək olar ki, heç biri reallaşmayıb. Bir tərəfdən də 44 günlük müharibədə Ermənistanın rüsvayçı məğlubiyyəti Nikol Paşinyanı tamamilə nüfuzdan salıb və artıq daxili auditoriyaya hesablanan pafoslu çıxışlarının da mənası yoxdur və hansısa təsirə malik deyil. Ermənistan cəmiyyəti ümidsizlik girdabında boğulur da desək, yanılmarıq, çünki çıxış yolunun nədən ibarət olduğunu tam düzgün, doğru şəkildə irəli sürən də yoxdur.

İkinci Qarabağ müharibəsinin məğlubiyyətinə görə ermənilər Rusiyanı hələ də günahkar hesab edirlər. Hələ də erməni cəmiyyəti bu məğlubiyyətlərinə rusların göz yummasını dilə gətirir və onlara qarşı ittiham səsləndirirlər. Maraqlıdır, nəyə görə Rusiya günahkar olmalıdır, Ermənistan yox? Təcavüz edən, işğalçılıq siyasəti yürüdən, Azərbaycan torpaqlarını işğal altında saxlayan Ermənistan tərəfi deyildimi? Ermənistanın silahlı qüvvələri, daha dəqiq desək, separatçılar onlara aid olmayan torpaqlardan çıxarılırsa, burada Rusiyanı günahlandırmaq çox məntiqsiz və absurd bir yanaşmadır. Yanlışlıq da buradadır və səhvi müəyyənləşdirmək, aradan qaldırmaq, doğru yol seçmək əvəzinə günahkar axtarmaq çıxış yolu deyil və hansısa müsbət nəticələr vəd edə bilməz.

Hər məğlubiyyətində, hər uğursuzluğunda, hər çətinliyində kimləri isə günahkar bilənlər nəyə ümid edə bilərlər? Ermənistan bir dövlətdir, ölkədir və maraqlıdır, niyə Rusiyadan xilas gözləntiləri olmalıdır? Əgər hələ də Rusiyadan asılıdırsa, bu ölkə hansı suverenlikdn dəm vurur? Təbii ki, Ermənistana suveren ölkə demək bu baxımdan doğru səslənmir. Hələ də bu ölkədə müstəqil qərarlar qəbul edilə,



verilə bilmirsə, hələ də asılıdırlarsa, deməli ölkənin sonu qaranlıq görünür. İstehsal yoxdursa, iqtisadiyyatı barədə danışmaq mümkün deyilsə, xarici əlaqələri günü-gündən pisləşirsə, deməli nikbin proqnozlar vermək mümkün deyil. Əgər bir dövlət daxili problemlərin öhdəsindən gələ bilmirsə, problemin həllində acizdirsə, ələlxüsus həmin problemə görə günahkar axtarırsa və başqa dövlətdən öz asılılığını etiraf edirsə, həmin dövlətin dağılması gözləniləndir və bunu həmin erməni cəmiyyəti də qəbul etməkdədir. Bir sözlə, dövlətçiliyi dağılma təhlükəsi ilə üz-üzə olan Ermənistanın vətəndaşları belə bu həqiqəti görür və etiraf edirlər.

***İnam Hacıyev***

# Ermənistanın ABŞ-la bioloji silah əməkdaşlığı

**Ermənistan Təhlükəsizlik Şurasının (TŞ) təcili iclas keçirilib. Yox, məsələ Azərbaycanla bağlı deyilmiş, bu dəfə tərs sillə Rusiyadan gəlib. Moskva rəsmi şəkildə İrəvandan ABŞ-ın Ermənistandakı bioloji laboratoriyasında aparılan tədqiqat işlərinin hesabatını tələb edib. Bundan əvvəl də Ermənistan rəsmilərinin açıqlamaları, laboratoriyaların fəaliyyəti barədə məlumatları yetərsiz olduğundan Rusiya bu dəfə məsələyə daha ciddi yanaşıb.**



İclasda qeyd edilib ki, Ermənistan və ABŞ arasında Bioloji Təhdidin Azaldılması Proqramı çərçivəsində əməkdaşlıq müstəsna olaraq dinc məqsədlər güdür. Əlavə edilib ki, koronavirus (COVID-19) pandemiyası yoluxucu xəstəliklərin diaqnostikası və nəzarətində güclü milli potensialın vacibliyi önə çəkilib. Bu imkanların inkişaf etdirilməsində Təhlükəsizlik Şurası beynəlxalq əməkdaşlığın mühüm rolunu qeyd edib. Təhlükəsizlik Şurası xatırladıb ki, hökumət ABŞ Müdafiə Nazirliyinin Təhdidlərin Azaldılması Agentliyi proqramının bir hissəsi olan Bioloji Təhlükənin Azaldılması Proqramı çərçivəsində açıq və şəffaf əməkdaşlıq ediblər. Bu əməkdaşlıq yalnız dinc məqsədlər güdür və bioloji silahlarla heç bir əlaqəsi yoxdur. Ermənistanda bu əməkdaşlıq insanların və heyvanların sağlamlığını qoruyur, o cümlədən yoluxucu xəstəliklərin yayılmasının qarşısının alınması, aşkar edilməsi və onlara nəzarət edilməsi, habelə yerli laboratoriyaların biotəhlükəsizliyi və biotəhlükəsizliyinin təkmilləşdirilməsi işi nəzarətdə saxlanılır.

TŞ-nin bu açıqlaması təbii ki, Rusiya tərəfini qane etməyib. Yoxsa Ermənistanın indiki durumunda, iqtisadi tənəzzülün çıxılmaz vəziyyətində, Azərbaycanla müharibəninfəsadları aradan qaldırılmadığı bir zamanda Təhlükəsizlik Şurasının təcili iclasının keçirilməsi, üstəlik də bəyanatın yayılması Ermənistan üçün heç də yaxşı bir şey vəd etmir. Əslində bundan əvvəl də Rusiya laboratoriyalarla bağlı postsovet ölkələrini xəbərdar etmişdi. Belə laboratoriyaların əsasən Ermənistan, Gürcüstan, Ukrayna, Moldova və Baltikyanı respublikalarda qurulduğuna dair məlumatlar var idi...



## Rusiya nədən narahatdır?

Amma məsələ Ermənistanla bağlı olduğu üçün burada bir az araşdırma aparmağa ehtiyac yaranır. Niyə Rusiya digər ölkələrə yox, məhz Ermənistana bu qədər diqqət yetirir, ətraflı monitorinq tələb edir. Görünür, nə isə baş verib. Halbuki bundan əvvəl Ermənistanın baş naziri Nikol Paşinyan Rusiyanı əmin etmişdi ki, ölkə ərazisində fəaliyyət göstərən bioloji laboratoriyalar ABŞ-ın köməyi ilə yaradılsa da, respublikanın mülkiyyətidir. O, zəmanət verib ki, bu əməkdaşlıq çərçivəsində Ermənistan müttəfiqləri üçün təhlükə yaratmır. Baş nazir Ermənistan və Rusiya Federasiyası arasında 2021-ci ildə imzalanmış bioloji təhlükəsizlik haqqında sazişi xatırladıb. O, həmçinin bildirib ki, Ermənistandan olan alimin Ukraynada və ya başqa ölkədə həyata keçirilən elmi proqramda iştirak etməsində qeyri-adi heç nə görmür.

Bir daha diqqət edək, deməli mayın 19-da Rusiyanın Ermənistandakı səfirliyi bəyanat yayıb və orada Ukraynada biolayihələrdə iştirak edən strukturların Ermənistanda olmasının diqqətlə təhlilə layiq olduğunu qeyd edib. Diplomatik nümayəndəliyin mesajında qeyd olunur ki, Rusiya Federasiyası bioloji təhlükəsizliyin təmin edilməsi sahəsində Ermənistanla məhsuldar qarşılıqlı faydalı əməkdaşlığı davam etdirmək istəyir. Gördünüzmü, yenə erməni fırıldağı, erməni kələyi, erməni ikiüzlülüyü. Bir tərəfdən Rusiya ilə müttəfiq, dost olduğunu deyir, digər tərəfdən ABŞ-ın İrəvanda qurduğu bioloji laboratoriyada tədqiqat işləri aparan alimini Ukraynaya göndərir. Rusiyanın da qorxduğu budur. Çünki, Ermənistanla Rusiya birbaşa sərhədə malik deyillər, Ukrayna ilə Rusiyanın 1926 kilometrlik sərhədi var. Ukrayna ilə Rusiya arasında aktiv müharibə artıq 186 gündür ki davam edir. Tərəflər bir-birini məhv etmək üçün müxtəlif növ silahlardan istifadə edir, bioloji silah niyə olmasın?

Ermənistanın Təhlükəsizlik Şurası onu da qeyd edib ki, ABŞ və müttəfiqləri Ermənistanda Rusiya sərhədlərinə yaxın ərazidə nə etdiklərini izah etmirlər. Və bu amil Rusiyanın bioloji təhlükəsizliyinin təmin edilməsi kontekstində nəzərə alınır. Ermənistan vətəndaşları yalnız bu laboratoriyalarda işləyirlər. Onlar qanun çərçivəsində fəaliyyət göstərirlər və onların fəaliyyəti dövlətin maraqlarına xidmət etməyə yönəlib.

Qeyd edək ki, Ermənistanda biolaboratoriyaların fəaliyyətinə qarşı dəfələrlə aksiyalar keçirilib. Bunlardan birincisi ABŞ-ın İrəvandakı səfirliyi, ikincisi isə Xəstəliklərə Nəzarət və Profilaktika üzrə Milli Mərkəzin binası qarşısında baş verib.

Əldə olunan məlumatlara görə, amerikalılar Ermənistan və Tacikistanda bioloji laboratoriyalar şəbəkəsini daha geniş yaradıblar. "Birləşmiş Ştatlar bütün dünyada, o cümlədən sərhədlərimiz ətrafında hərbi-bioloji fəaliyyətlə məşğuldur". Bunu Rusiyanın Xarici İşlər Naziri Sergey Lavrov Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) xarici işlər nazirlərinin görüşündə bildirmişdi. Moskva qonşu ölkələrdə bioloji təhlükəsizliklə bağlı baş verənlərdən narahatdır. Rusiyanın xüsusilə Gürcüstandakı Luqar mərkəzi ilə bağlı araşdırmaları bu gün də davam edir. KTMT-nin, Müstəqil Dövlətlər Birliyinin və Şanxay Əməkdaşlıq Təşkilatının sammitlərində Moskvanın təmsilçiləri dəfələrlə bildiriblər ki, amerikalılar bu laboratoriyalardan Rusiyanın maraqlarına qarşı istifadə edə bilərlər.

Sovet dövründə Ermənistan SSR Mikrobiologiya İnstitutu mikrobiologiya üzrə ən böyük mərkəz sayılırdı. 90-cı illərdə institutun elmi-tədqiqat işləri ABŞ və Böyük Britaniyanı maraqlandırıb. Ermənistanlı mütəxəssisləri Qərb ölkələrində təcrübə keçməyə dəvət edirdilər.

2000-ci illərdə amerikalılar Ermənistanda bir neçə biolaboratoriya qurublar. Pulu Pentaqon ayırıb. Təkcə Ermənistan Milli Xəstəliklərə Nəzarət və Profilaktika Mərkəzinin modernləşdirilməsinə on milyon dollar xərclənib. Yerevan, Gümrü, Vanadzor, Martuni və İcevanda inşa edilmiş elmi mərkəzlər guya Qafqaz regionu üçün xarakterik olan viruslar və ştammları öyrənir. Laboratoriyaların Ermənistan səhiyyə sisteminə daxil olması kağız üzərindədir, lakin ABŞ Müdafiə Nazirliyi yanında Təhlükənin Azaldılması üzrə Agentliyin onlara birbaşa çıxışı var. Yerli mütəxəssislərlə yanaşı, orada amerikalılar da işləyirlər.

Rusiyanı da narahat edən Ermənistandakı biolaboratoriyaların qapalı şəraitdə fəaliyyət göstərməsidir. Ötən ilin payızında Baş nazir Nikol Paşinyan rusiyalı mütəxəssislərlə əməkdaşlıq haqqında memorandumu imzalamağa razılıq versə də, detallar razılaşdırılsa da, son anda Ermənistan tərəfi bu sənəddən imtina edib.

## Bəs bioloji silah nədir?



Bioloji silah kütləvi qırğın silahlarının bir növü olub bakteria, virus və ya kif kimi mikroorqanizmlərdən əldə olunan vasitələrə və onları tətbiq etmək üçün istifadə edilən döyüş sursatına, cihaz və tərtibatlara deyilir. Bioloji silahın əsasını xəstəlik törədən mikroblar və onlardan alınan toksinlər təşkil edir. Bioloji silahlar insanların, heyvanların və bitkilərin məhv edilməsi, eyni zamanda ərzaq ehtiyatlarının və içməli suyun zəhərlənməsi üçün istifadə edilir. Bioloji vasitələrə, xarici mühitin təsirinə çox davamlı olan, əhali arasında kütləvi xəstəlik törədən, profilaktikası və müalicəsi çətin olan mikroblar aid edilir. Onların insanlara, heyvanlara və bitkilərə zədələyici təsiri bir sıra fərdi xüsusiyyətlərlə xarakterizə edilir. Xəstəlik törədən mikroblar ən kiçik dozalarla belə yoluxucu xəstəlik törədə bilir və onların toksinləri müəyyən müddət xarici mühitdə və ya yoluxmuş həşərat, gənə və gəmiricilərdə qala bilir. Bioloji vasitələrin zədələyici xassələrindən biri də onlarda inkubasiya və ya gizli təsir dövrünün olmasıdır.

Bioloji silahlarda, əsasən taunun, vəbanın, Sibir yarasının, tulyaremiyanın, brüselyozun, melioidozanın sarı və başqa isitmə növlərinin, təbii çiçəyin, psitmakozanın (ornitlozanın), səpmə və qarın yatalağının, qripin, malyariyanın dizentiriyanın və b. törədiciləri olan müvafiq mikroorqanizmlərdən, viruslardan, bakteriyalardan, göbələklərdən və s. istifadə olunur. Bioloji silahlar da, eynilə kimyəvi silahlar kimi hədəfə müxtəlif raket, artilleriya, fuqas, mərmi, mina, qumbara, xüsusi səpmə qurğuları vasitəsilə və ya su mənbələrini, qida anbarlarını, rəqib milli valyutasını və s. yoluxdurmaqla, istehlak bazarına bu maddələrlə yoluxdurulmuş ərzaq ixrac etməklə, ayrı-ayrı təşkilatlarına bu maddələrlə yoluxdurulmuş məktub göndərməklə və s. yolları ilə çatdırılır ki, sonrakı mərhələdə artıq o, kimyəvi silahdan fərqli olaraq eskalasiya, zəncirvari reaksiya doğuraraq epidemiya şəklində yayılır.

## Bakterioloji silah

Bakterioloji silah - kütləvi qırğın silahlarından biri olub insan, heyvan və bitkilərə xəstəlik törədici mikroorqanizmlərin zədələyici təsirinə əsaslanır. İnsan və heyvanları yoluxdurmaq üçün seçilmiş patogen; mikroorqanizmlər və onların toksinləri istifadə olunur. Patogen mikroorqanizmlər quruluşu, ölçüləri və bioloji təsirinə görə bakteriyalar, viruslar, göbələklər və ibtidailər sinfinə bölünür.

Bakteriyalar yüksək temperatur, işıq şüaları, rütubət və dezinfeksiyaedici maddələrin təsirinə həssasdır. Bəzi bakteriyalar xüsusi kapsula ilə örtülür və spor əmələ gətirir. Sporlar yüksək və aşağı temperatura, qurumaya, dazinfeksiyaedici maddələrin təsirinə çox davamlıdır.



## Digər bioloji silah növləri

Viruslar - mikroorqanizmlərin xüsusi sinifidir. Ölçüləri çox kiçikdir, canlı toxumadan kənarda yaşaya bilmirlər, buna görə bunları hüceyrədaxili parazitlər adlandırırlar. Günəş və ultrabənövşəyi şüaların, yüksək temperaturun, dezinfeksiyaedici maddələrin təsirinə həssasdırlar. Viruslar 200- dən artıq xəstəliyin səbəbi ola bilir.

Göbələklər - çox müxtəlif və geniş çeşiddə olan mikroorqanizmlərdir. Bitki mənşəli olub mükəmməl quruluşa malikdir, fiziki, kimyəvi təsirlərə və günəş şüalarının təsirinə, qurumağa davamlıdırlar.

Toksinlər bir sıra mikroorqanizmlərin həyat fəaliyyəti nəticəsində əmələ gələn, canlılara yüksək toksiki təsir göstərən, bəzi hallarda ölümə səbəb olan zülali maddələrdir. Botulizm, difteriya, tetanus toksinləri təmiz halda alınmışdır. Kənd təsərrüfatı bitkilərinə təsir edən kimyəvi vasitələr - toksinlər, herbisidlər, defoliantlar və desikantlar istifadə olunur. Bu kimyəvi vasitələr alaq otlarının məhv edilməsi, yarpaqların tökülməsi və bitkilərin qurudulması məqsədilə istifadə olunur. Bu maddələrin kütləvi istifadəsi torpağın sterilizasiyasına, bitkilərin ölməsinə, heyvan və insanların zəhərlənməsinə səbəb olur. 1963-cü ildə Vyetnamda herbisidlərin külli miqdarda istifadə olnması 2000 insanın zəhərlənməsinə (80 ölüm), 1969-cu ildə isə 28500 insanın zəhərlənməsinə (500 ölüm) səbəb olmuşdur. Bakterioloji silah kimi kənd təsərrüfatı bitkilərinə zərər vuran həşəratlardan istifadə olunur. Kolorada böcəyi, sarança, hessen milçəyi belə həşəratlardandır. Kolorada böcəyi kartof, pomidor, kələm vəs. kimi kənd təsərrüfatı məhsullarına ziyan vurur. Sarança böyük ərazilərdə bitki örtüyünə zərər vurma qabiliyyətinə malikdir. Hessen milçəyi buğda, arpa, çovdar kimi dənli bitkilərə ziyan vurur.

Bakterioloji silah məqsədilə taun, vəba, sibir yarası, botulizm, təbii çiçək, tulyaremiya kimi xəstəliklərin törədicilərindən istifadə olunur.

Bəli, Azərbaycanın Qarabağ bölgəsindən erməni silahlı dəstələrinin çıxarılması və sülh müqavilləsinin imzalanmasının müzakirə olunduğu bir şəraitdə Ermənistanın bütün Cənubi Qafqazda təhlükə mənbəyinə çevrilə biləcək bu cür məxfi bioloji laboratoriyaların fəaliyyətinə imkan yaratması yolverilməzdir. Ermənistan hökuməti bununla bağlı müraciətlərə müsbət cavab verməli, bu məsələ ilə əlaqədar dünya ictimaiyyətinə şəffaf şəkildə izahat verməlidir.

***V.VƏLİYEV***

# Ermənінin qatıq satanın nağılına bənzər arzusu...



...Yenə həməşəki giley-güzar, yenə əvvəlki "xox" gəlmələr. Ermənilər bu dəfə yazırlar ki,.. az qalıb. Guya hər şey öz yerini alacaq. Ermənistanı bu rəzil günə saldıqlarına görə, Serjik Sarkisyanı da, Robert Koçaryanı da, hətta o vaxtlar onlara quyruq bulayanları da tutub damlayacaqlar. Çünki onlar vaxtilə "dünyada böyük hörmətə" sahib olan Ermənistanı hörmətdən salıblar. Ona görə də, indi heç bir dövlət Ermənistanı saymır.

Ermənilərə görə, beləleri, yəni Serjik, Robert kimiləri... milli mənliklərini itirənlərdir.

Deyirəm, icazə verək, ardını ermənilər özləri desinlər: "...Amma bizim qədim xalqımız onsuz da gec-tez yenidən doğulacaq. Əvvəllər bizdə buna bənzər vəziyyətlər olub, lakin hər dəfə sağ qalmağı bacarmışıq. Biz indi də sağ qalacağıq. Biz nəinki sağ qalacağıq, hətta nəyin bahasına olursa olsun, bu gün bizə hörmətsizlik edib, bizi dövlət yerinə qoymayan dövlətləri də bizə hörmət etməyə məcbur edəcəyik".

Təbii ki, ermənilərin bu tipli sayıqlamalarını eşidən hər kəsdə az qala "qolunuza çöpdən dirək" deyib, "uğurlar" arzulamaqdan başqa bir yol qoymurlar.

Amma, deyim ki, ermənilərin bu sərsəmləmələri mənə folklorumuzdakı çoxsaylı rəvayətlərdən birini xatırlatdı. Deyirəm, bəlkə də eşitmis olarsınız və əgər eşiməyibsinizsə, deyim, Siz də hali olun.

Beləlklə, deyilənə görə, köhnə əyyamlarda biri al-verlə, yəni bugünkü deyimlə desək, gələcəkdə böyük biznes qurmaq arzusuyla...hələlik isə kiçik bizneslə məşğul olmaq istəyir. Cox götür-qoydan sonra süd alıb ondan qatıq hazırladıb satmaq qərarına gəlir.

İlk əvvəl vəsaitinin az olduğundan, aldığı südə evdə cəmi 7 və ya 8 qab qatıq hazırlada bilir və onları da böyük bir tabağa yığıb qaldırıb qoyur başına.

Və üz tutur bazara. Bazarın da yolu yaxın deyilmiş deyə, başlayır, bu günkü satacağı qatıqdan gələcək qazancını hesablamağa. Təbii ki, satacağı qatıq az olduğu üşün qazanacağı vəsaitin də hələlik az olacağını ürəyinə salıb dərd etməmək üçün özünə təsəlli verir.

Belə ki, ürəyində özü üçün danışan "gələcək biznesmen", bugünkü qatığı satıb puluna sabah bir az artığını, o biri gün ondan da artığını alarcağını...ha, belə-belə "pullanıb" əyalətdə tanınıb seçilənlərdən biri olacağını düşünür.

...Deməli bundan sonra hamı da onu görəndə baş əyəcək ... bax belə, deyərək başındakı tabağı unudaraq özü-özünə baş əymək istəyir.

...Və başına qoyduğu tabaqdakı qatıqlar yerlə bir olur.

Hə, indi deyirəm, görən, o vaxt ermənilər südə mayanı necə vurub qatıq hazırlamağı bizdən oğurlamayıblar ki..?

***Ağasəf Babayev***

# "Azərbaycanın Şuşada varlığı, həmçinin, beynəlxalq hüququn təntənəsidir"

"Şuşa Azərbaycan üçün yalnız inzibati vahid deyil, Şuşa bizim üçün milli- mənəvi məsələdir. Həmçinin beynəlxalq rakursdan yanaşsaq, Azərbaycan bayrağının Şuşada dalğalanması bölgə üçün, region dövlətləri üçün yeni bir dönəmin, sülh və əməkdaşlıq periodunun başlanmasının anonsudur". Bu sözləri SİA-ya açıqlamasında deputat Bəhruz Məhərrəmov deyib.

Onun sözlərinə görə, işğala və təcavüzə son qoyulması ilə BMT TŞ qətnamələrinin icrası baxımından Azərbaycanın Şuşada varlığı həmçinin beynəlxalq hüququn təntənəsidir: "Bu mənada Azərbaycan hökumətinin dəvətini qəbul edib Şuşaya nümayəndə göndərən dövlət, yaxud ölkəsi qatılmamaları və Azərbaycan hökumətinin dəvətinə açıq şəkildə etinasızlıq göstərmələrini ərazi bütövlüyümüzə qarşı hörmətsizlik kimi qiymətləndirdi.

İndi kimlərsə iddia etməyə başlayıb ki, yox, bu səfirlər Ağdamda, yaxud Zəngilanda olub. Yaxşı, sual qoyuram, bunların Şuşa qorxusunun kökündə nə dayanır? Separatçıların Şuşa arzusu, yaxud iddiası? Bu davranış riyakar siyasət və və separatizmə dolayısı ilə rəvac vermək deyilmi?

Əksini düşünmək, artıq milli maraqları yox, başqasının maraqlarına xidmət etmək deməkdir və elə bu proseslərin sonunda xeyli sayda antimilli ünsür özünü ifşa etdi. Məsələn Cəmil Həsənli. Hikmət Hacıyevin bəyanatından dərhal sonra Cəmil Həsənli adına Şuşaya səfər edən diplomat Azərbaycanın ərazi bütövlüyünə hörmətlə yanaşı, beynəlxalq hüququn prinsiplərinə də ehtiram göstərmiş olur. ABŞ və Fransanın səfirləri Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun digər nümayəndələri ilə birlikdə Şuşaya getməkdən imtina etməklə 30 illik fəaliyyətsiz həmsədr ampluasında ilişib qaldıqlarını göstərdilər. Bu mənada Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev çox doğru olaraq Fransa və ABŞ-ın Azərbaycandakı səfirlərinin Şuşa səfərinə




BŞ və Fransa səfirlərinin müdafiəsinə qalxıb və deyib ki, səfirlərin belə bir öhdəliyi yoxdur. Həsənli hətta hökuməti günahlandırır ki, guya Azərbaycan hakimiyyəti xarici səfirlərlə avtobus müxalifəti kimi rəftar etmək istəyir. Sual verirəm, sən xarici səfirlərin dərdini niyə çəkirsən Cəmil Həsənli, dəvət edən razı, gedən razı, sənə nə düşüb? Səni səfirlərin yol boyu erməni vəhşiliklərini görməsi səni niyə narahat edir?".

***Arzu Qurbanlı***

TƏHLİL + AKTUAL

# Şəhid dərdi, qazi dərdi, bir də ki, itkin dərdi...

*Necə ki, dünyada müharibələr davam edir, onların insan övladına bəxş etdiyi ağrı-acılar nə bitəcək, nə də tükənəcək. Müharibə dəhşətdi, faciədi, dağıntı, viranəlik, xarabalıqdır. Müharibə insan övladının ən kədərli alın yazısıdır. Onun həyatının qara rəngidir. O rəng ki, müharibə bitəndən sonra da dəyişməz qalır. Qara rənglə ömürlər davam edir. İllər ötür, dağıntılar bərpa olunur, viranəliklər, xarabalıqlar abadlaşdırılır, cənnətə çevrilir, lakin qəlblərdən şəhid dağı silinmir. Sağlamlıqlarını itirmiş, ömrünün qalan hissəsini gözlərimiz önündə ağrı-acı içərisində keçirən qazilərin iztirabları bitmir. Bir də ən dəhşətlisi olan itkin dərdi əsla tükənmir. Çünki...*



### Bir itiyin olanda...

İnsan övladı ona bəxş olunanlarla tamdır. Onun yaranışı, varlığı, yaşamı belə qurulub ki, əlindəkilərlə, ətrafındakılarla, bütün olanları ilə tamdır. Və tamdırsa, xoşbəxtdir. İnsan övladı günlərin bir günündə hansısa bir əşyasını itirirsə, bir ömür gözləri orada-burada onu axtarır. O da ola övladı. Müharibələr insanların əlindən övladını qoparıb alanda onları ya şəhid kimi ata-anasına təhvil verir, ya müxtəlif xəsarətli qazi kimi. Müharibələrin doğmalara qaytara bilmədikləri isə itkinlərdir. O itkinlər ki, bir ömür doğmalarının gözlərini yollarda qoyur. Öldüsünə-qaldısına əmin olmayan doğmaları hər qapı döyüldüyündə, açıldığında onun gəlişini zənn edirlər. Beləliklə bir ömür gözlər yollara dikilir. Nə ata, nə ana təsəlli tapa bilir. Alın yazıları olan acı bir həyat yaşamaq məcburiyyətində qalırlar. Övladları itkindir. O, haradadır, yaşayırmı, öldürülübmü? Nə kimi ağır məşəqqətlərə sövq edilib. Nə yeyir, nə içir, harada yatır, harada yaşayır kimi fikirlər bir ömür ata-ana ürəyini qurd kimi yeyib bitirir...

### 30 avqust - Beynəlxalq İtkinlər Günüdür

2010-cu il dekabrın 21-də BMT-nin Baş Məclisi tərəfindən təsis edilən Beynəlxalq İtkinlər Günü bizim xalqın da alın yazısı olanlar içərisindədir. Bu gün bizə aid olmaya da bilərdi. Bəli, müharibələr olmasaydı, bu gün, ümumiyyətlə, nə bizim, nə də başqa millətlər üçün olmaya da bilərdi. 30 il öncə ermənilər torpaqlarımıza göz dikməsəydilər, bizim torpaqların hesabına özlərinə vətən düzəltmək eşqinə düşməsəydilər, müharibələr də olmazdı və Beynəlxalq İtkinlər Günündə bizim də payımız olmazdı. Kaş ki, olmazdı. Heç bir ata-ananın itkin övladı olmazdı. Onların ürəyinə itkin dağı çəkilməzdi. Qəlblərində sağalmaz yaralar açılmazdı. Axı bu yaraya çarə yoxdur. Ya insanlıq yenidən yaranmalı, ürəklərə yanğı dolmalı, itkinlər öz tərəflərinə verilməli, ya da bir ömür valideynlər, doğmalar öz itkininin acısı ilə yaşamalıdır. Bunlardan hələlik ki, ikincisi yaşanmaqdadır. Birincisi haqqında düşünən yoxdur...

### İtkin acılı Azərbaycan

Ölkəmiz dünyada itkin düşənlərlə bağlı ən ağrılı problemlərlə üzləşən ölkələrdəndir. Mənbələrə əsasən demək olar ki, Birinci Qarabağ Müharibəsi zamanı Ermənistanın təcavüzü və işğalçılıq siyasəti nəticəsində itkin düşmüş minlərlə azərbaycanlının taleyindən bu günə qədər də xəbər yoxdur.

1993-cü ildə yaradılan Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası həmin tarixdən etibarən Ermənistanın Azərbaycana hərbi təcavüzü ilə bağlı yaranmış humanitar böhranın nəticələrinin aradan qaldırılmasına çalışır. Dövlət Komissiyası ötən illər ərzində Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq humanitar hüquq normalarına uyğun olaraq Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK) ilə sıx əməkdaşlıq edir. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində Birinci Qarabağ Müharibəsində 3890 nəfər Azərbaycan vətəndaşı itkin düşmüş şəxs kimi Dövlət Komissiyasında qeydiyyata alınıb. Onlardan 3171 nəfəri hərbçi, 719 nəfəri mülki şəxsdir. Mülki şəxslər içərisindən 71 nəfəri yetkinlik yaşına çatmamış uşaq, 267 nəfəri qadın, 326 nəfəri yaşlı insanlar olub.

İtkin düşmüş şəxslərin ümumi sayından 872 nəfər, o cümlədən 29 uşaq, 98 qadın və 112 qoca əsir-girov götürülmüş və ya işğal edilmiş ərazilərdə qalıb. Sonradan azad olunmuş əsir və girovlar həmin şəxsləri sağ gördüklərini təsdiq ediblər.

Ermənistan münaqişənin bütün dövrü ərzində bu şəxslər barədə məlumatları beynəlxalq təşkilatlardan gizlədib, onların sonrakı taleyi barədə məlumat verməkdən yayınıb. Birinci Qarabağ Müharibəsində itkin düşmüş şəxslərdən 54 nəfəri Ermənistan tərəfində saxlanıldıqları vaxt sağ ikən onlarla müxtəlif vaxtlarda BQXK-nın nümayəndələri görüş keçirib. Sonradan onlardan 17-sinin meyiti təhvil verilib, 33-nün ölümü barədə məlumat verilsə də, onların meyitləri qaytarılmayıb, 4-ü barədə isə, ümumiyyətlə, heç bir məlumat almaq mümkün olmayıb. Birinci Qarabağ Müharibəsi dövründə 1480 nəfər azərbaycanlı erməni əsir-girovluğundan azad edilib.

2008-ci ilin aprel ayında BQXK-nın Azərbaycandakı Nümayəndəliyi ilə Dövlət Komissiyası arasında imzalanmış "İtkin düşmüş şəxslər haqqında Ante Mortem məlumatların toplanması və mərkəzləşdirilmiş şəkildə idarə olunması üzrə" çərçivə sazişinə əsasən, 2014-cü ildən etibarən itkin ailələrindən bioloji (DNT) nümunələrin toplanması işinə başlanıb. Ötən müddət ərzində 3315 itkinin ailə üzvlərindən 10309 bioloji nümunə toplanıb. 2021-ci ilin noyabr ayından etibarən toplanmış bioloji nümunələrdən DNT profillərinin çıxarılması işinə başlanıb. Bu məqsədlə hazırkı vaxta qədər 1024 bioloji nümunənin hər biri üzrə profillər çıxarılıb.

### İtkinlərimizə münasibət erməni vəhşiliyinin daha bir sübutudur

Münaqişə zamanı itkin düşmüş şəxslərin taleyinin müəyyən edilməsinə mane olan əsas səbəb 2020-ci ilin noyabr ayının 10-dək Ermənistanın Azərbaycan ərazilərini işğalı faktı olub. Hazırkı şəraitdə itkinlərin taleyinin müəyyən edilməsinə mane olan əsas faktlar isə Ermənistanın dəfn yerləri barədə məlumatları təqdim etməməsi və işğaldan azad edilmiş ərazilərdə çoxsaylı minaların olmasıdır. Yüksək səviyyəli görüşlərdə və müxtəlif platformalarda dəfələrlə qaldırılmasına və müzakirə edilməsinə baxmayaraq, Ermənistan tərəfi Birinci Qarabağ Müharibəsində itkin düşmüş şəxslərə aid məzar yerləri barədə məlumatları təqdim etmir.

2020-ci ilin 44 günlük Vətən müharibəsində əldə edilmiş zəfərdən sonra yaranmış yeni situasiyada Birinci Vətən Müharibəsində itkin düşmüş şəxslərin sonrakı taleyinin aydınlaşdırılması ilə bağlı bir sıra tədbirlər həyata keçirilib.

2021-ci ilin fevral, 2022-ci ilin aprel ayına qədər işğaldan azad edilmiş Şuşa rayonu, Daşaltı kəndi, Xocavənd rayonu, Edilli kəndi, Xocalı rayonunun Fərrux və Daşbaşı kəndləri ərazisində müəyyən edilmiş kütləvi məzarlıqlarda aparılmış ekshumasiya zamanı, həmçinin, işğaldan azad edilmiş Ağdam, Şuşa, Göygöl, Tərtər, Füzuli, Kəlbəcər və Zəngilan rayonları ərazilərdə tikinti-quruculuq işləri aparılarkən 82 şəxsə aid olduğu ehtimal edilən meyit qalıqları müəyyən edilərək götürülüb.

Birinci Qarabağ Müharibəsi zamanı şəhid olmuş və respublikanın 13 şəhər və rayonunun ərazisində yerləşən 21 qəbiristanlıqdakı 191 naməlum şəhid məzarından 183 meyit qalığı ekshumasiya edilib. Hazırda İkinci Vətən Müharibəsində itkin düşmüş 6 Azərbaycan hərbçisinin axtarışı davam etdirilir.

### Ermənilər tarix qarşısında cavab verməlidirlər

Torpaqlarımıza göz dikmələrinə, 30 il torpaqlarımızı işğal altında saxlamalarına, günahsız insanları dədə-baba yurdundan zorla qovmalarına, onların 30 il qaçqın, köçkün, didərgin statusu ilə yaşamalarına, torpaqlarımızı xarabazarlığa çevirmələrinə, daşı daş üstündə qoymadıqlarına, torpaqlarımızı başdan-başa minaladıqlarına, şəhid, qazilərimizə, bir də ki, itkinlərimizə, onlara verdikləri cəzalara görə ermənilər tarix qarşısında cavab verməlidirlər. Lakin hələlik dünyada elə bir ədalət mərkəzi yoxdur ki, onları haqqa-hesaba dəvət edə. Bir xalqın başına açılan oyunlar üçün onları sorğu-sual edə. Ayrı-ayrı vaxtlarda itkin əzizlərini axtaranları aldadaraq ölkələrində əsir saxladıqlarını, onlara olmazın işgəncəsini verməlerini, ağır işlərdə çalışdırdıqlarını, insanlığa yaraşmayan davranışlarını, harada öldürüb, harada basdırdıqlarını soruşan bir haqq məhkəməsi olmalıdır. Çox təəssüf ki, dünyanın bəzi ölkələri bütün bunları bilə-bilə onları müdafiə edir, heç nə olmayıbmış kimi davranır. Ölkəmiz illərdir, müxtəlif beynəlxalq təşkilatlar qarşısında itkinlərimizlə bağlı məsələ qaldırsa da, heç bir reaksiya olmayıb. Hələlik sükut davam edir.

Lakin gün gələcək erməni adlı yağı, vəhşi tarix qarşısında cavab verməli olacaqdır. Onların xalqımıza qarşı törətdikləri əməllər heç bir insanlığa sığmır. Təbii ki, insanlıqdan söhbət açanda ermənilərin adını vəhşi qəbilə olaraq çəkmək belə günahdır.

**Mətanət MƏMMƏDOVA**



## İkitərəfli əməkdaşlıqda yeni səhifə açılır

Ölkə prezidenti cənab İlham Əliyevin apardığı uğurlu xarici siyasət nəticəsində bu gün Azərbaycanın dünya dövlətləri ilə, nüfuzlu beynəlxalq təşkilatlarla qarşılıqlı əməkdaşlıq



Ayaz Quliyev,
YAP Xızı rayon təşkilatının sədri

münasibətləri yüksək səviyyədə qurulur, istər siyasi, istər iqtisadi, istərsə də hərbi sahədə əlaqələr daha da genişlənir, yeni istiqamətlər müəyyənləşir. Bu münasibətlər qarşılıqlı inam və hörmət prinsipləri əsasında günü-gündən inkişaf etdirilir.

Azərbaycan qarşılıqlı hörmət prinsipləri əsasında tam müstəqil xarici siyasət həyata keçirilir. Bu siyasətin nəticəsidir ki, bu gün Azərbaycanın beynəlxalq arenada nüfuzu möhkəmlənib, dostlarının, strateji tərəfdaşlarının və müttəfiqlərinin sayı artıb, Azərbaycanın dünyada etibarlı tərəfdaş kimi tanınması təmin edilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəvəti ilə Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin Azərbaycana rəsmi səfərinin olduqca böyük əhəmiyyəti var. Prezident İlham Əliyevin Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevlə 2022-ci il 24 avqust tarixində görüşü və imzalanmış sənədlər iki ölkə arasında bütün sahələrin inkişafı üçün geniş perspektivlərin olduğunu göstərir. Xüsusilə iki ölkə arasında imzalanmış "Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında strateji münasibətlərin möhkəmləndirilməsi və müttəfiqlik qarşılıqlı fəaliyyətinin dərinləşdirilməsi haqqında Bəyannamə"ni xüsusi qeyd etmək lazımdır. Cənab Prezidentin bildirdiyi kimi, ölkələrimiz təkcə strateji tərəfdaşlar deyil, həm də müttəfiqdir. Əlbəttə, bu, bizim üzərimizə xüsusi məsuliyyət qoyur, eyni zamanda, əməkdaşlığımızın çox istiqamətlərini ehtiva edir və həmçinin, gələcək fəaliyyətimiz üçün çox ciddi baza kimi əsas rol oynayacaqdır.

Bəyannamə ilə yanaşı iki ölkə arasında 20-dən artıq sənəd imzalanmışdır ki, bu sənədlər də ikitərəfli əməkdaşlıqda yeni səhifə açılır və ölkələrimiz arasında qarşılıqlı əlaqələrin daha da möhkəmlənməsindən xəbər verir. Sözsüz ki, Azərbaycan-Qazaxıstan arasında münasibətlərin yüksəldilməsi, əlaqələrinin müttəfiqlik səviyyəsinə çatması hər iki ölkənin dövlət başçılarının əlaqələrimizin inkişafına verdiyi önəmin, göstərdikləri diqqətin nəticəsidir. Əminliklə demək olar ki, dərin tarixi köklərə malik olan Azərbaycan-Qazaxıstan münasibətləri bundan sonra yüksək sürətlə inkişaf edəcək, xalqlarımız arasında mövcud olan dostluq əlaqələri daha da möhkəmlənəcəkdir.

ŞƏRH




# Ermənilər özlərini farslarla eyni irqin nümayəndələri hesab edirlər

## Hər iki toplum bəşəriyyət üçün təhlükə mənbəyinə çevrilir

Son 200 ildə Azərbaycan xalqına qarşı düşünülmüş şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti erməni avantüristlərinin və onların havadarlarının qeyri-insani siyasətlərinin nəticəsi olmuşdur. Azərbaycanlılar kütləvi şəkildə öldürülür, evləri dağıdılır, qaçqın və məcburi köçkün vəziyyətinə salınırdılar. 1828-ci ildə İrəvan və Naxçıvan xanlıqlarına məxsus torpaqlarda yeni inzibati bölgü-erməni vilayəti təşkil edilərkən bu ərazidə mövcud 111 yaşayış məntəqəsindən cəmi 62-si erməni kəndi olmuşdur. Həmin illərdə dağıdılmış 359 azərbaycanlı kəndinin əhalisinin çox hissəsi öldürülmüş, qalanları isə təqiblərə və milli ayrı-seçkilik siyasətinə məruz qalaraq İran və Türkiyə torpaqlarına qaçmağa məcbur olmuşlar. XX əsrin əvvəllərində xarici ölkələrdən köçürülən ermənilərin sayının bir milyona çatması bölgədə demoqrafik vəziyyətin tamamilə dəyişməsinə gətirib çıxarmışdır. Erməni daşnak millətçilərinin "böyük Ermənistan" ideyasını həyata keçirmələri ilə bağlı təbliğatları Qafqaz bölgəsində milli qırğınlara səbəb olmuşdur. Bu qırğınlar 1905-1906-cı illərdə Bakıda, Naxçıvanda, İrəvanda, Zəngəzurda, Gəncədə və Cənubi Azərbaycanda davam etmişdir. Erməni daşnak quldur dəstələri 1905-ci il noyabrın 28-də Qarabağ bölgəsinin şəhər və kəndlərini yandıraraq uşaqlara, qadınlara və qocalara qarşı görünməmiş vəhşiliklər törətmişlər. Ermənilər təkcə Şuşa, Cavanşir və Cəbrayıl qəzalarında 75-ə qədər Azərbaycan kəndini, İrəvan və Zəngəzur quberniyalarında 200-dən çox yaşayış məntəqəsini dağıtmış, əhalini vəhşicəsinə qətlə yetirmişlər. Erməni terrorçuları hələ 1904-cü ilin senyabrında Bakı şəhərində bir neçə azərbaycanlını qətlə yetirmişlər. Həmin qətllər isə ermənilər tərəfindən xəbərdarlıq xarakteri daşımışdır.

1905-ci il fevralın 5-də erməni terrorçu dəstələri Bakı qəzası Sabunçu kəndinin sakini Ağarza Babayevi öldürmüşlər. Qətl iğtişaş yaratmaq məqsədilə törədilmişdir. Elə həmin gün erməni quldur dəstələri realnı və texniki məktəblərin 7-ci sinif şagirdləri Yakov Lebedevi və İvan Volkovu öldürmüşlər. Erməni alimi C.Libardyanın yazdığına görə, üç il ərzində (1904-1906-cı illər) erməni terrorçuları 105 "Siyasi qətl" törətmişlər. Bunların 56-sı ermənilərə qarşı, 32-si siyasi bəhanələrlə həm ruslara, həm də türk məmurlarına və zabitlərinə qarşı, 2-3-ü təsadüfən, heç bir səbəb olmadan, qalanları bankirlərə və sələmçilərə qarşı olmuşdur. Alimlər Libardyanın göstərdiyi rəqəmləri araşdıraraq yazmışlar: " Bu qısa üçillik dövrdə erməni terrorçuları tərəfindən öldürülmüş, erməni mənşəli hər iki adamla yanaşı, bir qeyri-erməni mənşəli şəxs də qanına qəltan edilmişdir. Məqsəd dəyişməyibdir: dinc ermənilərin böyük əksəriyyətini qəsdən qorxutmaq, onları terrorçuların qabiliyyətini təşviq etmək məcburiyyətində qoymaq".





### Erməni quldur dəstələri qadınlara, uşaqlara, qocalara rəhm etməmişlər

1905-ci ilin fevralında Bakıdakı Mixaylov xəstəxanasının sənədlərinə görə, erməni milyonçuları Balabek Lalayevin, Artyom Babayantsın, İsay Ter Osipovun və başqa maqnatların havadarlığı sayəsində daşnak terror qrupu 18 adamı öldürmüş və 33 nəfəri yaralamışdır. Onların 34-ü azərbaycanlı, 6-sı rus, 6-sı erməni, 5-i başqa millətin nümayəndələridir. 1905-ci il fevralın 7-də erməni terror təşkilatı Bakıda 100-dək dinc vətəndaşlarımızı öldürmüş və yaralamışdır. Erməni quldur dəstələri həmin ilin fevral ayında Bakı sakinlərini qətl və qarətlərə məruz qoymuşdular. Erməni dəstələri kütləvi qırğınlar törətdikdən sonra varlı ermənilərin (Balabek Lalayev, Artyom Babayants, Akop Muradyan, Karen Saakyants və b.) evlərinə yığılmış, onların pəncərələrindən və damlarından şəhərin küçələrinə atəş açmış, ingilis, fransız istehsalı olan bombalar, qumbaralar atmışlar. 1905-ci ilin 6-10 fevral qırğınları tarixə "Bakı şəhərində qanlı qətliam" kimi düşmüşdür. "Daşnaküstyun" beynəlxalq erməni terror təşkilatının idarə etdiyi quldur dəstələri 1905-ci ilin 20-21 fevralında İrəvan şəhərinin müsəlman sakinlərinə qarşı insanlığa yaraşmayan hərəkətlər edərək qırğınlar, vəhşiliklər etmişlər. Dinc əhalinin vəhşicəsinə öldürülməsi bu amansız hadisənin şahidlərini dəhşətə gətirmişdir. Ümumilli liderimiz Heydər Əliyev bu hadisələrə belə qiymət vermişdir: "Saxtalaşdırılmış erməni tarixi dinc ermənilərin şovinist ruhda böyüməsinə zəmin yaratmaq üçün dövlət siyasəti səviyyəsinə qaldırır. Böyük humanist ideallara xidmət edən Azərbaycan ədəbiyyatı və mədəniyyəti ruhunda tərbiyə olunmuş yeni nəslimiz ekstremist erməni ideologiyasının təqiblərinə məruz qalır. Azərbaycan xalqının mənəviyyatına, milli qüruruna və mənliyinə yönəlmiş böhtanlar siyasi və hərbi təcavüz üçün ideoloji zəmin yaradır".

1905-ci il mayın 11-də Bakı şəhərində beş erməni terrorçusu Qafqaz xalqları arasında dostluq əlaqələri ruhunda çıxış edən knyaz M.A.Nakaşidzeni və Q.Takiyeşkini qətlə yetirdilər. Bu hadisəni şahid R.R.Subinski öz xatirələrində göstərmişdir. O dövrün məlumatlarına əsasən, qatillərdən biri Dro ləqəbli Drastamat Kanayan olmuşdur. Bu hadisələrdən əvvəl Dro Zəngəzur mahalında erməni quldur dəstələrinin tərkibində dinc əhaliyə - türklərə, kürdlərə, azərbaycanlılara qarşı qanlı qırğınlarda yaxından iştirak etmişdi. Erməni daşnak quldurları 1905-ci il mayın 24-də İrəvan quberniyasında dinc azərbaycanlılara atəş açdılar. Qarışıqlıqdan istifadə erməni saqqallıları on bir vətəndaşı- 4 qadın, 2 uşaq və 5 kişini qətlə yetirdilər.

### Ermənilər 1905-ci ildə Zəngəzur bölgəsində yüzlərlə azərbaycanlını öldürmüş, evlərə od vuraraq yandırmışlar

Bu qanlı hadisələrdən doymayan erməni quldur dəstələri 1905-ci ilin mayında Naxçıvan torpağına hücum edərək dinc əhaliyə divan tutdular. Çoxlu sayda qadın, qoca və uşağı öldürdülər.

***Ardı Səh. 12***

# Ermənilər özlərini farslarla eyni irqin nümayəndələri hesab edirlər

Əvvəli Səh.11

Ermənilər 1905-ci ildə Zəngəzur bölgəsində də onlarca adam öldürmüş, evlərə od vuraraq yandırmışlar. Bütün silah növləri ilə təmin olunmuş erməni quldur dəstələri 1905-ci il iyunun 2-də Mənkus müsəlman kəndinə hücum etmişlər. Silahsız kəndlilər ailələrini götürüb qaçmağa məcbur olmuşlar. Kənddə qoca və əlil olan 80 yaşlı bir sakin erməni quldurlarının əlinə keçmişdir. Erməni quldurları şişləri qızdıraraq işgəncə verməklə onu öldürmüşlər. Ermənilər bu vəhşilikləri 1988-1989-cu illərdə Ermənistan torpaqlarından qovulan azərbaycanlılar üzərində də həyata keçirmişlər. Erməni daşnak dəstələri 1905-ci ilin iyunun 8-də İrəvan yaxınlığındakı Eçmiədzin qəzasındakı Uşu azərbaycanlı kəndini mühasirəyə almış, buranı işğal etdikdən sonra kişilərin başlarını kəsmiş, südəmər uşaqları süngülərə keçirmişlər. Bu basqın zamanı kəndin məscidi yandırılmışdır. Ermənilər ertəsi gün Eçmiədzin qəzasındakı Peçsi, Nazrevan, Kiçik kənd, Kötüklü, Qoşabulaq və İrgü azərbaycanlı kəndlərini də yandırmış, məscidlərə od vurmuş və insanlığa yaraşmayan hərəkətlər edərək murdarlamışlar. Erməni daşnak dəstələri öz çirkin əməllərindən əl çəkməyərək 1905-ci ilin avqustun sonlarına yaxın Bakı əhalisinə qarşı dəhşətli qırğınlar törətdilər. 1905-ci il avqustun 8-də 300-dən çox erməni daşnakı Şuşa qəzasının Vənd kəndinin karvan dəstələrinə hücum etdilər. Çoxlu tacir öldürüldü, əmlakları talan edildi. Kəndin sakini Abbas bəyin oğlunu, qardaşını və bir neçə nökər-naibini qətlə yetirdilər. Onların törətdikləri qanlı qırğınların məqsədi isə yerli əhalini Şuşanı və Qarabağın dağlıq hissəsinin digər ərazilərini tərk etməyə məcbur etmək idi. Ermənilərin piyada və süvari dəstələri 1905-ci il oktyabrın 3-də Azərbaycanın Sırxavənd müsəlman kəndinə hücum təşkil etdilər. Dəstəyə quldur terrorçu Hamazasp başçılıq edirdi. Kənd az vaxt içində insan meyitləri ilə doldu. Uşaqları bir yerə yığaraq kütləvi halda öldürdülər.

## Ermənilər özlərini farslarla qan qardaşı hesab edirlər

Özlərini farslarla bir irqdən bilib onları qan qardaşı adlandıran erməni daşnakları 1905-ci ilin fevral ayında Bakıda, Tiflisdə, Şuşada qırğınlar törədir, hətta Cənubi Azərbaycandan gələn soydaşlarımızı öldürməkdən belə çəkinmirdilər. Bəllidir ki, 1905-ci ildə Bakının neft mədənlərində çalışan fəhlələrin 25 faizindən çoxu məhz Cənubi Azərbaycandan gəlmiş Azərbaycan türkləri idi. Tarixi mənbələrə görə, XVIII əsrin 1-ci yarısında İrəvanın 65 yaşayış məntəqəsində müsəlmanlar, 4 məntəqəsində isə ermənilər yaşayırdılar. Məhəmmədzadə Mirzəbala yazır ki, I Dünya müharibəsindən öncə bütün dünyada mövcud olan ermənilərin 1 milyon 100 min nəfəri Qafqazda, 100 min nəfəri İranda, 400 min nəfəri Türkiyədə yaşayırdı. Müxtəlif ölkələrdən Cənubi Qafqaza köçürulən ermənilər məskunlaşdıqları ərazilərdə az sonra qətliamlar törətməyə başladılar. Mövcud sənədlərə istinadən demək olar ki, İrəvan əyalətinin 119 kəndində, Naxçıvan əyalətinin 61 kəndində, Ordubad dairəsinin 11 kəndində yerləşdirildi. Beləliklə, İrəvan əyalətində 4559 ailə (23588 nəfər), Naxçıvan ətrafında 2137 ailə (10652 nəfər), Ordubad dairəsində 250 ailə (1340 nəfər) yerləşdirildi. Nəticədə, əzəli Azərbaycan torpaqları hesabına yaradılan qondarma erməni vilayətinə 35560 nəfərdən ibarət erməni ailəsi köçuruldu. Rusiya ilə İran arasında bağlanmış Türkmənçay müqaviləsinin 15-ci maddəsinə görə rus çarizminin təkidi ilə İranda yaşayan ermənilərin Azərbaycan ərazisinə köçürülməsi rəsmiləşdirildi. 1829-cu il sentyabrın 2-də Osmanlı imperiyası ilə Rusiya arasında imzalanmış Ədirnə sülh müqaviləsinin 13-cu maddəsinə əsasən, Osmanlı ərazisində yaşayan ermənilərin kütləvi şəkildə Azərbaycan torpaqlarına köçürülməsinə başlanıldı. Ermənilərin bu ərazinin yerli əhalisi deyil, gəlmə olduqlarını başqa xristian qaynaqları ilə yanaşı, elə erməni mənbələri də təsdiqləyir. Türkmənçay müqaviləsinin imzalanmasının (1828-ci il 20 mart) ertəsi günü rus çarı İ Nikolay "erməni vilayəti" yaradılması barədə fərman verdi. Türkmənçay müqaviləsinin 15-ci maddəsinə görə İran hökuməti müharibə vaxtı öz dövlətinə xəyanət edərək ruslara qulluq etmiş şəxslərin (əsasən, ermənilərin) Rusiya işğalı və tabeliyində olan torpaqlara köçürülməsinə əngəl törətməməli idi. Belə bir vaxtda 1827-ci ilin mayında rus generalı Paskeviçin xüsusi tələbnaməsi əsasında ermənilər arasında nüfuz sahibi olan polkovnik Lazerev (Qazaros Lazaryan) köçürülmə işlərinə rəhbərlik etmək üçün Təbrizə komendant təyin edildi. Rus ordularının Təbrizə basqını zamanı (13 oktyabr) Lazerevin çağırışından riqqətə gələn ermənilər yenə də xəyanət edərək Təbrizin darvazalarını rus ordusunun uzərinə açdılar. Köçürülən kasıb erməni ailələrinə kömək etmək üçün rus dövlətinin xəzinəsindən 25 min rubl gümüş pul ayrılmışdı.1828-ci il dekabrın 24-də Lazerevin Paskeviçə yazdığı yekun hesabatında göstərilirdi ki, köçürmə işi 1828-ci il dekbrın 24-də Lzerevin Paskeviçə yazdığı yekun hesabatında göstərilirdi ki, köçürmə işi 1828-ci il fevralın 26-da başlamış və iyunun 11-də başa çatmışdı.





Lazerev 1828-ci il martın 9-da Paskeviçə yazdığı raportunda qeyd edirdi ki, artıq 4500 erməni ailəsi köçürülərək Araz çayının İran tərəfindəki sahilinə gətirilmişdir. 1828-ci il mayın 26-da Gürcüstandakı baş qərargah rəisinə təqdim edilən raportda isə bildirilirdi: "Rusiyaya məxsus olan vilayətlərə xristianların köçürülməsi müvəffəqiyyətlə aparılır. Artq Qarabağda 279, İrəvan vilayətində isə 948 ailə məskunlaşdırılmışdır. Polkovnik Lazerevin vədinə əsasən, köçürülən ailələrin sayı 5 minə çatdırılmışdı. İ.Sopenin yazdığına görə, İrandan köçürülən ermənilərdən yalnız 366 ailə (1725 nəfər) İrəvan sahəsinin özündə 265 ailə (1110 nəfər) Naxçıvan şəhərində və 36 ailə (482 nəfər) isə Ordubad ərazisində məskunlaşdırıldı. Xaricdən köçürülən ermənilər İrəvan əyalətinin 119 kəndində, Naxçıvan əyalətinin 61 kəndində, Ordubad dairəsinin 11 kəndində yerləşdirildi. Beləliklə, İrəvan əyalətində 4559 ailə (23588 nəfər), Naxçıvan ətrafında 2137 ailə (10652 nəfər), Ordubad dairəsində 250 ailə (1340 nəfər) yerləşdirildi. Nəticədə, əzəli Azərbaycan torpaqları hesabına yaradılan qondarma erməni vilayətinə 35560 nəfərdən ibarət erməni ailəsi köçürüldü. Lazerevin hesabatından məlum olur ki, 3 ay yarım ərzində İran ərazisindən xristian-erməni ailəsi İrəvan, Naxçıvan və Qarabağ əyalətinə köçürülmüşdür ki, bu da ən azı 40 min nəfər demək idi. Həmin illərdə Rusiya dövlətinin xəzinəsindən 14 min manat qızıl və 400 min manat gümüş pul xərclənmişdi. Bununla yanaşı, rus tədqiqatçısı N.Smirnov İrandan 90 min ermənininin köçürülərək Azərbaycan ərazilərində məskunlaşdırıldığıns yazır.

## İran erməniləri Şimali Azərbaycan torpaqlarına yeni dövlət yaratmaq məqsədilə köçürülmüşdü

Tarixi hadisələrin sonrakı gedişi bir daha sübut etdi ki, İran erməniləri Şimali Azərbaycan torpaqlarına xüsusi məqsədlə - yeni dövlət yaratmaq məqsədilə köçürülmüşdü. Bu işləri həyata keçirməkdə xüsusi canfəşanlıq göstərən hərbçilər və din xadimləri rus çarizmi tərəfindən mükafatlandırılırdılar. II Rusiya-İran müharibəsində qələbə çalan rus qoşunları 1828-ci il iyunun 14-də Paskeviçin komandanlığı altında Gümrü yaxınlığında 12 minlik qoşunla Arpaçaydan Şərqi Anadoluya hücuma başladı. İyunun 23-də Qars qalası işğal edildi. Rus qoşunları iyulun 24-də Axalkalakini, avqustun 15-də Axiskanı, 22-də Ərdahanı, 28-də Bəyazidi işğal etdilər. 1829-cu ilin yazında müharibənin yenidən alovlanması nəticəsində rus qoşunları Ərzurumu, daha sonra Muşu, Oltunu və Bayburtu işğal etdilər. İrəvan xanlığından - öz ata-baba yurdlarından didərgin salınan azərbaycanlılar ən çox Şərqi Anadoluya hücumları zamanı qirğınlara və yenidən bu ərazidən köçkün halına düşməyə düçar olan yenə də azərbaycanlılar idi. Onlar bu dəfə də əsasən, Türkiyənin içərilərinə köçməyə məcbur oldular. 1829-cu ilin avqustunda rus qoşunları Balkan ətrafından İstanbula irəliləyərkən II Sultan Mahmud Rusiya dövlətinə barışıq təklif etdi. Bu addım 1829-cu il sentyabrın 2-də Ədirnə müqaviləsinin bağlanması ilə nəticələndi. Axalkələk qalası və Axıska şəhəri Rusyaya birləşdirildi. Ruslar tərəfindən işğal edilmiş Qars, Trabzon, Bəyazid və Ərzurum paşalıqları isə Turkiyəyə qaytarıldı. Ədirnə sülhünün 13-cü maddəsinə əsasən, Türkiyənin işğal olunmuş torpaqlarındakı ermənilərə 18 ay ərzində daşınan əmlakları ilə bərabər Rusiya təbəliyinə keçmək hüququ verilmişdi. Türkiyədə yaşayan erməniləri yenicə işğal olunmuş Azərbaycan ərazilərinə köçürmək, həmçinin, Türkiyə ilə sərhəd boyu ərazilərdə də ermənilərin say üstünlüyünü təmin etmək məqsədilə 1829-cu il oktyabrın 10-da Paskeviç rus imperatoru I Nikolaya raport yazıb Ərzurumda və Qarsda yaşayan ermənilərdən 10 min nəfərin Gürcüstanda və "erməni vilayətində" yerləşdirilməsinə icazə istədi. 1829-cu il noyabrın 18-də hərbi nazir Çernişev Paskeviçə çar I Nikolayın onun tərəfini bəyəndiyini bildirdi. Türkiyənin Qars və onun ətrafından köçürülən ermənilər yaşadıqları ərazilərin iqliminə uyğun olaraq Ələyəz (Alagöz) dağı ətrafındakı boşaldılmış Azərbaycan kəndlərində yerləşdirildi. Rus general-mayoru Bercman Qarsdan Gümrüyə yola salınan 400 erməni ailəsinə sənəd təqdim etdiyini bildirdi. İrəvan yaxınlığında Sərdarabad qalasında olan 270 ev həmin vaxt ermənilər tərəfindən zəbt edilmişdi. Bir qədər keçdikdən sonra M.Vladkin ermənilərin bu əraziyə köçürülməsi haqqında yazırdı: "İrəvan quberniyasında yaşayan ermənilərin əksəriyyəti buranın yerli sakinləri olmayıb,1830-cu il yanvarın 22-də Paskeviçin Çernişevə verdiyi məlumata görə, Qars və ətraf ərazilərdən köçən 2500 erməni ailəsi onun sərəncamına əsasən, yaşadıqları yerin iqliminə uyğun olan Ələyəz dağı ətrafında - Pəmbək distansiyasındakı boşaldılmış Azərbaycan kəndlərində yerləşdirildi. Türkiyədən köçürülən ermənilər Axıska, Pəmbək-Şorəyel və "erməni vilayətində" yerləşdirildi. Talış mahalı, Göyçə gölü ətrafı və Baş Abarana 14044 erməni ailəsi köçürülmüşdü. Ərzurumdan köçürülən 7288 erməni ailəsindən 500-ü, eləcə də Ərdahandan 67 erməni ailəsi Axıska padşahlığı ərazisində,1050 ailə Borçalı distansiyasında və Çalqa ətrafında, qalan 1305 ailə isə Pəmbək və Şorayel distansiyalarında yerləşdirilmişdi. Hesablama komissiyasının sayına görə Osmanlı dövlətinin torpaqlarından 84 min nəfərdən artıq erməni və yunan köçürüldüyü məlum oldu. Lakin 1831-ci il aprelin 24-də qraf Paskeviç adına verilmiş əlahəzrətin buyuruğunda rus dövləti tərəfindən Türkiyə vilayətindən köçürülmüş xristianlar, yəni erməni və yunanlardan ibarət 14 mindən çox ailə (90 min nəfərə qədər) üçün 380 min gümüş pulun ayrıldığı bildirildi. İ.Sopenin apardığı siyahıyaalmanın nəticələrinə görə, 1828-1829-cu illər Rusiya-Türkiyə müharibəsindən sonra "erməni vilayətinə" Türkiyədən 21666 nəfər (3682 ailə) erməni, 324 nəfər (67 ailə) yezidi kürdü köçürülmüşdü. Rusiya imperatorunun fərmanı ilə "erməni vilayəti" yarandığı vaxt İrəvan əyalətində İrəvan, Sərdarabad, Şərur və Sürməli dairələri yaradıldı. Mənbələr, arxiv materialların saxlandığı Matendaranda sənədlərə istinad edən N.A.Tavakalyan İrandan köçürülən ermənilərin sayının 8510 nəfər olduğunu qeyd edirlər. 1834-cu ilin kameral təsvirinə görə bütövlükdə İrəvan əyalətində 22336 ailə var idi ki, bunun da 65300 nəfərini kişi cinsi təşkil edirdi. Bunların 29690 nəfəri tatar, yəni Azərbaycan türkləri, 10350 nəfəri əvvəllər köçürülmüş ermənilər və 24255 nəfəri İran və Türkiyədən yenicə köçürülən yezidi türkləri, az qismi isə boşa adlanan qaraçılardan ibarət idi. 20 clddən ibarət həmin siyahıyaalmanın nəticələri İ.Şopenin 1852-ci ildə nəşr edilən "Erməni vilayətini Rusiya imperiyasına birləşdirilməsi dövrünün tarixi abidəsi" adlı əsərində verilmişdi. Bu siyahıyaalmaya görə müharibədən sonra erməni vilayətində mövcud olmuş 752 kənddən 521-i İrəvan əyalətinə,179-u Naxçıvan əyalətinə, 52-si isə Ordubad dairəsinə aid idi. Siyahıyaalmanın nəticələrinə görə köçürülməyən vilayətlərdə 81749 nəfər müsəlman, 25151 nəfər erməni qeydə alınmışdı. Bu gün də erməni terroru davam edir və günahsız Azərbaycan övladları qətliamlara məruz qalır. Dünya birliyi ənənəsinə uyğun olaraq erməni terroruna susur. Çünki özləri yetişdirdikləri erməni terrorunu dayandırmaqda maraqlı deyillər. Ancaq gec-tez yetişdirdikləri erməni terrorunun ağır və acı nəticələrini özləri də yaşamalı olacaqlar.

***İ.ƏLİYEV***

# Heyvanlarla təmas zamanı təhlükəsizliyimizi necə qorumalıyıq?

**Polşa yazıçısı Joanna Zielinska deyir ” Biz insanlar tərəfindən canlılar üçün qurulmuş bir dünyada yaşayırıq, insanlar orada sağ qalacaqlar, lakin heyvanlar bunu bacara bilməyəcəklər”. İnsanlar tərəfindən küçə heyvanlarına qarşı edilən qəddarlıqlara son vaxtlar daha çox rast gəlirik.**

Son bir neçə onillikdə bəşəriyyət problemi dərk etməyə başlayır və vəziyyəti elə dəyişdirməyə çalışırlar ki, pişiklər, itlər insanların yanında rahat yaşaya bilsinlər. Təbii ki, bunun üçün ilk addım kimi heyvanların hüquqlarının olduğunu etiraf etmək və onlara qarşı olan aqressiv münasibəti dəyişmək lazımdır.

Müxtəlif ölkələrdə dəyişikliklər müxtəlif yollarla və müxtəlif sürətlə baş verir. Statistikalar heyvanların mühafizəsinin dərəcəsinin ölkənin iqtisadi rifahı ilə birbaşa əlaqəli olduğunu göstərir. Heyvanların sayının tənzimlənməsi və ev heyvanlarının qorunması sahəsində xarici təcrübə göstərir ki, bu problemin həlli kompleks tədbirlər tələb edir. Ümumilikdə götürsək üç komponenti göstərə bilərik.

1. Heyvanların mühafizəsi ilə bağlı qaydaların qəbulu.

2. Sistemli kütləvi sterilizasiya proqramlarının aparılması və sığınacaqların yaradılması.

3. Əhalinin təhsili və təlimi.

Hansısa tikinti sahələrin və ya parkların yanından keçəndə sahibsiz itlərə rast gəlirik. Çox vaxt onlar insanlara əhəmiyyət vermir, lakin bəzən aqressiv olurlar. Küçələrdəki heyvanların sayı niyə bu qədər çoxalır?

Heyvanların probleminə hər kəs şüurlu yanaşmaq iqtidarında deyil və təəssüf ki, bütün əxlaqi problemlərin qanun sözü ilə deyil, vicdanla həll ediləcəyi ideal bir dünyada yaşamırıq. Xəbərdarlıq, cərimə və həbs kimi məhdudiyyətlər sistemi tərtib etmək lazımdır ki, insanlar heyvanalara qarşı qəddarlığa yol verildikdə ciddi nəticələrə səbəb olacağını başa düşsünlər.

Mövcud sığınacaqlarda şəraitin yaxşılaşdırılması və sahiblənməyə götürmə mərkəzləri şəbəkəsinin inkişaf etdirilməsi mühüm məsələlərdəndir.

Sahibsiz itlər qlobal problem kimi bütün dünyaya yayılmışdır. Ölkəmizdə belə heyvanların dəqiq sayını öyrənmək üçün rəsmi statistika yoxdur. Mütəxəssislərin dediklərinə görə son vaxtlar sahibsiz heyvanların sayı çoxalır , xüsusilə böyük şəhərlərdə onların sayında çoxluq hiss olunur.

Yiyəsiz heyvanların əksəriyyəti küçədə doğulur. Ev itləri isə evdən kənar həyata tamamilə uyğunlaşmırlar.

**Canlı Aləmin Mühafizəsi Alyansının sədri Mənsurə Rəsulzadə** SİA- ya açıqlamasında qeyd edir. Ev Heyvanlarının Mühafizəsi Avropa Konvensiyasına 2007- ci ildən bizim dövlətimiz də qoşulmuşdur. Konvensiyada ev heyvanları sinifinə mənsub



olan yiyəsiz heyvanların məsuliyyətini dövlətin üzərinə düşdüyünə qərar verilib. Konvensiyada onların peyvəndləməsi, təkcə bir məkanda yox, bütün bölgələrdə mərkəzlərin olması nəzərdə tutulmuşdur. Həmçinin heyvanların öldürülməsi ilə bağlı qadağa olunması ilə də bağlı qərar qəbul edilib. Onların təhlükəsizliyi, aqressiyası da məhz insanların aqressiya səbəbindən yaranır. Küçələrdə insanlardan daha çox şiddət görürlər deyə qorxurlar. Sürü ilə gedən heyvanlar kimsə toxunanda özlərini müdafiə etmək üçün aqresiyyalarını göstərir. Bu kimi halların qarşısını almaq üçün daha çox məsuliyyət Dövlət Baytarlıq Xidmətinin üzərinə düşür. Bunun üçün artıq prezidentin imzası ilə qərar çıxarılmışdır. Heyvanlar üçün sığınacaqlar yaradılmalıdır. Bir yerdə işləmək, insanları bu işə yönləndirmək üçün dəfələrlə baytarlıqlarla görüşüb, təkliflərimizi irəli sürmüşük. Dövlət maliyyəni minimal ayırdığı üçün xeyriyəçilik yolu ilə də onların qayğısına qalmaq olar. Heyvanların yemləməsi, vaksinasiya edilməsi üçün insanlar həmrəy olmalıdırlar. Onların küçələrində olmaması təkcə insanların yox, elə özlərin də ziyanlıdır.

Yiyəsiz heyvanlara sahiblənmək üçün daha çox heyvansevərlər və xarici vətəndaşlar müraciət edirlər. Kömək üçün müraciət etdiyimiz hər bir qurum məsuliyyətsiz yanaşaraq işini daha yuxarıdakı fondların üzərinə atırlar. Nə öz işlərini həyata keçirir, nə də bizim işimizi həyata keçməyə şərait yaradırlar. Buna görə də torpaq sahəsi ayrılma problemimiz hələ də var. Son vaxtlar heyvanlara qarşı şiddət daha da çoxalır deyə Bakıda 3/4 sığınacaq üçün yer axtarırıq. Hətta vaksinasiya edilib təyin edilmiş məkana yerləşdirmək üçün aparılan heyvanların yoxa çıxması bəlli oldu və sözsüz ki, bunlar



həmin qurumun vətəndaşlarının gizlin şəkildə həyata keçirildiyi işlərin sübutudur. Problem onların bir qisminin öldürülməsi ilə həll olunmur. 20 ildir bu işdəyəm və 20 ildir biz heyvanları müdafiə edirik, sahibləndiririk. Konvensiyanın tələblərindəki prosesləri düzgün həyata keçirsə, heyvanların rifahı qorunar və bütün problemlər həll olunar. İstəyirik ki, heyvansevərliyi qəribə, əcaib bir fəaliyyət kimi qəbul etməsinlər, əksinə ciddi yanaşsınlar. Bir çox valideynlər övladlarını nəinki küçələrdə olan yiyəsiz heyvanlardan hətta ev şəraitində saxlayan heyvanlardan belə uzaq saxlamağa çalışırlar.

### Heyvanlarla ünsiyyət uşaqların psixologiyasına necə təsir edir?

Müasir uşaqlarla 30/50 il öncəki uşaqlar arasında müqayisə etsək görərik ki, əvvəlki uşaqlar indiki nəslin uşaqlara nisbətən təbiətə daha yaxın idilər. Həyət evlərdə, kənd yerlərdə yaşayanlar daimi olaraq təbiətlə, yaşıllıqla və canlılarla mütəmadi ünsiyyətdə olurdular. Bu sözləri **psixoloq Orxan Oruc** deyib. Son 10/15 ili götürsək təbiəti də, canlıları da müasir elektron mühit əvəz edib. Artıq uşaqlar toyuq bəsləməyi belə hansısa oyunlar vasitəsilə həyata keçirirlər. Hətta heyvanlarla birgə əylənməyi də oyunlar vasitəsilə edirlər. Bu da sözsüz ki, uşaqların inkişafı üçün çox ciddi çətinliklər yaradır.



Eyni zamanda müasir həyatımızda ev heyvanları saxlamağa onlara üstünlük verən insanların sayı da çoxalır. Uşaqların ev heyvanları ilə ünsiyyətlərin müsbət və mənfi tərəfləri nədir? Bəzi valideynlər düşünürlər ki, ev heyvanları ilə ünsiyyət uşaqlara zərər verə bilər və sağlamlığına xəsarət yetirər. Əksinə düşünən peşəkar mütəxəsislər də vardır ki, uşaqlarla canlıların ünsiyyəti bir növ onların inkişafına müsbət təsir göstərir. Uşaqlar ev heyvanlarla ünsiyyətdə olanda ilk cəhətdən fərqli bir canlı aləmdə olduqlarını düşündükdən sonra onların da bir insan kimi əyləncəli vaxt keçirməyinə, müəyyən fiziki tələbatların ödənilməsi lazım olduğunu başa düşürlər. Onlar da təbiətin bir parçasıdır anlayışını dərkt etmiş olurlar. Heyvanlarla ünsiyyətdə müəyyən emosiyaların olduğunu, kədərləndiyini, acıqlandığını, sevinə bildiyini hətta küsə bildiyini belə öyrənirlər.Təbii bir prosesin içində özlərin də kənardan müşahidə etmək imkanları olur. Canlıların həyatına nəzər yetirsək onların doğulması və ölməsi insanın həyat ömründən daha qısa müddət ərzində baş verir. Və mütləq bir şans yaranır ki, uşaq evdə doğulan və ölən heyvanı görsün. Bu uşağın bir tərəfdən doğum və ölüm anlayışının kiçik yaşlardan dərk etməsinə kömək edir. Bu da irəliləyən həyatda reallığı daha rahat şəkildə qəbul etməyə dəstək verir.

Canlılarla ünsiyyət uşaqların məsuliyyət hissinə də müsbət təsir göstərir. Onlarda kiçik yaşlardan məsuliyyət hissinin yaranmasına kömək edir. Burda valideynlərinin də rolu böyükdür. Heyvanların qidalanması , suyun verilməsi, təmizliyini uşaqlar icra etdikcə özlərində məsuliyyət hissi formalaşır və dərk edirlər ki, ondan asılı olan, onun baxmasına ehtiyac duyulan bir canlı var. Uşaqlar canlılarla mütəmadi əyləncə bir mühitdə olur və bu uşaqların sosial bazaların inkişafına təsir göstərir. Eyni zamanda uşaqlar adətən daha çox sevgi alan və sevgi gözləyən obrazda olurlar. Heyvanlarla ünsiyyət zamanı uşaq başa düşür ki, qarşılıqlı sevgi nə qədər önəmlidir. Təbiətin bir qanunu kimi onun verdiyi sevginin geri qayıtmasının şahidi olurlar.

Heyvanlarla təmas zamanı nəzərdə tutulan təmizliklərə riayət olunmadıqda bir çox dəri xəstəliklərinə də rast gələ bilir. Onlarla ünsiyyət zamanı dəri xəstəliklərə tutulmaması üçün necə tədbirlər görməliyik?

**Dermatolog Mədinə İsmayılova** bu haqda SİA- ya danışıb.

2000 -dən çox dəri xəstəlikləri mövcuddur və bu xəstəliklər də qruplara bölünmuşdür. Onlardan biri də ev heyvanlarından keçən dəri xəstəliklər sayılır. Ən çox evdə saxladığı heyvanlara it, pişik, kirpi, ev quşları və s aid etmək olar. Ən çox dəri xəstəlikləri itlərdən və pişiklərdən keçdiyini müşahidə edirik. Xəstəliklər arasında birinci yeri göbələk xəstəlikləri təşkil edir. Elə bir gün olmur ki, pasiyentlər bu xəstəliklə müraciət etməsinlər. Göbələk xəstəliyi insana daha çox xəstə heyvanla təmas nəticəsində keçir. Onları tumarlayarkən qısa bir müddətdə insan yoluxur ve təxminən 6/10 gün ərzində insanın dərisi qaşınmağa, qızarmağa başlayır və sonra dəri iltihabı şeklində özünü göstərir. İltihab müxtəlif formalarda ola bilər və hər bir insanın dərinin xüsusiyyətlərindən asılı olaraq xəstəliyin gedişatı müxtəlif ola bilir. Müxtəlif yaşda olan insanlarda dəyişik əlamətlərlə özünü göstərir. Bəzi insanlarda quru qaşınma, qızarma, dəridə irinləmə prosesləri, bəzilərdə isə sulanma və,s kimi əlamətləri olur. Göbələk xəstəliyinə el arasında ” Dəmirov” deyirlər. Dəmirov sözü geniş məna daşıyır. Ümumiyyətlə, bir-birinə bənzəyən belə xəstəliklər Dəmirov termini altında birləşə bilirlər. Amma bu xəstəliklər bir-birindən çox seçilir və səbəbləri müxtəlifdir. Dəmirov ümumi bir anlayışdır. Dəridə hansısa iltihabi proses hiss etdikdə dərhal dermatologa müraciət etmək lazımdır. Pişiklərdən keçən daha bir xəstəliyi də var ki, bu ”Pişik cızma” xəstəliyi adlanır. Xəstə pişiyin insanı cızma nəticəsində dərisinə bakteriyalar keçir və bunun əlamətləri həmin cırmaqlamış yerinin ətrafında limfa vəziləri şişkinlik, qızartı olur. Üstündən bir neçə həftə keçdikdə insanda baş ağrısı, ümumi halsızlıq, hərarəti qalxır. Bəzən bunun fəsadları daha ağır ola bilir. Göbələk xəstəliyi nəticəsində tük tökülmə də baş verir. Bununla bərabər yaxşı qulluq edilməyən it və pişiklərdən birə keçə bilər. İnsanlardan əlavə heyvanların özlərini də infeksion xəstəliklərə yoluxdura bilərlər. İnfeksiya nəticəsində insanlarda yaranan yaralar həyat üçün təhlükəlidir. Göbələk xəstəlikləri bir insandan eyni evdə yaşayan digər insanlar da qısa müddətdə keçmək ehtimalı böyükdür. Bu, sadəcə, xarici görünüşə görə yox, insanın sağlamlığına, ətrafdakılara yayılmamağına görə vaxtında tədbirlər görmək mütləqdir. Heyvan saxlayan insanlar heyvanı ən azı ildə iki dəfə veteranara göstərməlidirlər ki, onların gələcəkdə tutulacaq xəstəliklərin qarşısını almaq üçün öncədən addımlar atsın. Həmçinin insan özündə vaxtı vaxtında təmizliyə riayət etməlidir.



### Bəs ev heyvanlarının tutula biləcəyi xəstəliklər hansılardır?

Bir canlı orqanizm olaraq ev heyvanlarınında (əsasən itlər və pişiklər) çeşidli xəstəlikləri mövcuddur. Bu xəstəlikləri infeksion, invazion və yoluxmayan xəstəliklər adı altında qruplaşdıra bilərik. Bu fikirləri baytar-həkim **Adil Əsgərov** bildirib. Burada əsasən sizinlə itlərdə və pişiklərdə olan infeksion ( müxtəlif bakterial, virus və göbələk mənşəli xəstəliklər) və invazion ( ibtidailər, helmintlər və müxtəlif parazitlərin səbəb olduğu xəstəliklər) xəstəliklərdən bəhs edəcəyik. Əsasən infeksion və invazion xəstəliklər barədə məlumat verməyimizin səbəbi, bu xəstəliklərin ev heyvanlarında daha çox rast gəlinməsi və eyni zamanda həmin xəstəliklərin bəzilərinin insanlara da yoluxma (zooantroponoz xəstəliklər) ehtimalının olmasıdır.



Həkim həmçinin itlərdə ən çox rast gələnən xəstəliklərə virus mənşəli olan parvovirus, ətyeyənlərin taunu, adenovirus, paraqrip xəstəliklərini, bakterial mənşəli olan leptospiroz, pasterelyoz, salmanelyoz, tuberkulyoz xəstəliklərini, ibtidai təkhüceyrəlilərin törətdiyi leyşmanioz, anaplazmoz xəstəliklərini, xarici parazitlərin törətdiyi demodekoz, sarkoptoz xəstəliklərini, müxtəlif göbələk və qurd xəstəliklərini misal göstərib.

Pişiklərin ən çox rast gəlinən xəstəliklərinə isə kalsivirus, panleykopeniya, herpesvirus kimi virus xəstəlikləri, xarici parazitlərin törətdiyi xəstəliklər, göbələk və qurd xəstəliklərini misal göstərmək olar.

Zooantroponoz, yəni heyvanlardan insanlara keçən bəzi xəstəliklərdə vardır ki, bunlardan bəzilərini yoluxma ehtimalı daha yüksək bəzilərinin isə yoluxma ehtimalı daha aşağıdır. Bu xəstəliklərə qurd xəstəlikləri, göbələk xəstəlikləri, parazitar xəstəlikləri və s misal göstərmək olar. Heyvanlardan insanlara keçən ən təhlükəli xəstəlik isə virusların səbəb olduğu quduzluq xəstəliyidir. Ölkəmizdə ev heyvanlarından insanlara yoluxan quduzluq xəstəliyinə çox az rast gəlinsə də bunu gözardı etmək də düzgün yanaşma hesab edilmir. Lakin heyvanların xəstəlikləri ilə bağlı olan profilaktik tədbirləri (peyvəndləmə, xarici və daxili parazitlərdən təmizlənmə və s.) həyata keçirdiyiniz təqdirdə xəstəlik yoluxma ehtimalını sıfır faizə endirmək mümkündür.

Düşünürəm ki, dövrümüz tələbi ilə küçədən heyvan sahiblənmək ən təqdirəlayiq bir addımdır, amma bu istəyi kortəbii halda reallaşdırmaq sizin və sahibləndiyiniz heyvanın həyatında bir sıra mənfi halların da yaşanmasına səbəb ola bilər. Bu ehtimalları nəzərə alaraq və özünüzün və heyvanınızın səhhətini təhlükəyə atmamaq üçün, sahiblənəcəyiniz heyvanın hər şeydən öncə bir baytar həkim müayinəsindən keçməsini təmin edin.

Sahibləndiyiniz və bütün lazımi profilaktik tətbrirlərin aparıldığı sağlam bir heyvan sizə bir ömür boyu ən gözəl dost ola bilər. Düzgün yetişdirilən sağlam bir ev heyvanı özündə sizin üçün heç bir təhlükə ehtiva etmir.

***Havar Şəfiyeva***

# İrəvan "yuxarı tüpürür bığ, aşağı tüpürür saqqal" vəziyyətində

**Bu kimi məsələlər yalnız hərbi deyil, həm də iqtisadi fonda özünü nümayiş etdirməkdədir**

**44 günlük İkinci Qarabağ müharibəsində uğradığı ağır və sarsıdıcı məğlubiyyətindən sonra həm təhlükəsizlik, həm də daxili sabitliyin pozulması baxımından çıxılmaz vəziyyətə düşən Ermənistan üçün Rusiya ilə ikitərəfli münasibətlərin həlledici əhəmiyyət kəsb etməsini ölkə rəhbərliyi yaxşı bilir. Ancaq Qərbin də Ermənistana ardıcıl təzyiqlər göstərməsi fonunda Nikol Paşinyan hakimiyyətinin "yuxarı tüpürürsən bığ, aşağı tüpürürsən saqqal" məsələsində də çaşbaş vəziyyətdə qalması göz önündədir. Həmçinin, bu kimi məsələlər yalnız hərbi deyil, həm də iqtisadi fonda özünü nümayiş etdirməkdədir.**

Məsələn, Rusiya 30 ildir ki, Ermənistanın enerji təchizatını öz monopoliyasına alıb, buna Ermənistanın boru kəməri və təbii qazpaylayıcı şəbəkəsinə "Qazprom"un birbaşa sahibliyi, eləcə də Rusiya hökuməti ilə güclü əlaqələri olan etnik erməni sahibkarın elektrik enerjisi şəbəkəsinə nəzarət etməsini, eləcə də dəmir yolunun da Rusiya şirkətlərinin inhisarında olduğunu göstərmək olar. Həmçinin, Ermənistan faktiki olaraq xarici yardımlar hesabına ayaqda qalmağı bacarır, amma bunun da sonsuza qədər davam edəcəyini düşünmək yersizdir. Çünki müharibədən sonra Rusiya qarışıq, digər ölkələrdə fəaliyyət göstərən erməni diasporları mövcud hakimiyyətlə əlaqə saxlamaqdan imtina edirlər. Hazırda Ermənistanın əsas iqtisadiyyatı xeyli dərəcədə Rusiyada çalışan ermənilərin pul köçürmələrindən asılı olsa da, onun bu qapısı da çöldən bağlanmaq üzrədir. Belə ki, son vaxtlar, xüsusilə Rusiyanın Ukraynaya geniş miqyaslı hücumu başlayandan indiyə qədər bənzər köçürmələrin sayı xeyli azalmağa başladı.












## Ermənistan sadəcə Rusiyanın öz hərbi-siyasi məqsədləri üçün əyalət funksiyasını rolunu oynayır və illərdir ki, İrəvanın Kremlin forpostu olması iddiaları da əbəs yerə səsləndirilməyib

Digər tərəfdən, Ermənistanın Rusiyanın Ukraynaya qarşı siyasətini dəstəkləməsi də ölkə rəhbərliyi üçün ən həssas məsələlərdən biridir. Məsələn, Rusiya Gümrüdəki 102-ci hərbi bazasındakı qoşunlarının bir hissəsini Ukraynaya köçürmək üçün İrəvanın razılığını almadı və bu fakt erməni tərəfini ciddi narahat etməyə başladı. Halbuki, bunun üçün rəsmi qaydalarda müraciət edilməli, ikitərəfli razılıq əsaslandırılmalıydı. Bu isə göstərir ki, Ermənistan sadəcə Rusiyanın öz hərbi-siyasi məqsədləri üçün əyalət funksiyasını rolunu oynayır və illərdir ki, İrəvanın Kremlin forpostu olması iddiaları da əbəs yerə səsləndirilməyib.

Eləcə də, İrəvan öz bəyanatlarında davamlı şəkildə Moskvanın dominantlıq etdiyi Avrasiya İqtisadi İttifaqı (AİI) və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) çərçivəsində əməkdaşlığın dərinləşdirilməsi zərurətindən bəhs etsə də belə bununla bağlı praktiki səylərin az olduğunu görmək olar. İrəvan sadəcə söz yığnağı xarakterli bəyanatları ilə necə deyərlər, baş aldatmağa çalışır.

## İrəvanın çəm-xəm etməsi də diqqətlərdən yayınmır və o hər vəchlə yaxasını kənara çəkməyə çalışır, çünki onu bunu etməyə vadar edən digər cinah da var - Qərb!

Rusiya isə iddia edir ki, Qərbin tətbiq etdiyi sanksiyaların məqsədi Rusiyanı zəifləmək və ABŞ-ın qlobal hegemonluğunu təmin etməkdir. Nəticə etibarilə Rusiya və onun keçmiş sovet müttəfiqləri "həmrəylik" nümayiş etdirməli və sanksiyaların təsirini azaltmaq üçün AİI ilə birgə addımlar atmalıdırlar. Bu məsələdə İrəvanın çəm-xəm etməsi də diqqətlərdən yayınmır və o hər vəchlə yaxasını kənara çəkməyə çalışır, çünki onu bunu etməyə vadar edən digər cinah da var - Qərb!

44 günlük müharibə zamanı və ondan sonra Rusiyanın Ermənistana minimal dəstəyi, Rusiyanın Avropa İttifaqının himayəsi altında Ermənistan-Azərbaycan danışıqlarına etimadsızlığı, eləcə də erməni müxalifətinin aqressiv və rusiyayönlü ritorikası kimi digər məsələlər də potensial olaraq Moskva və İrəvan arasında ikitərəfli münasibətləri gərginləşdirə bilər.

Çoxsaylı fikir ayrılıqları çox güman ki, İrəvana ciddi problemlər gətirəcək. Xüsusilə, gözlənilən Brüssel görüşündən qıcıqlandığını gizlətməyən və dərhal erməni hökumətinə dolayı xəbərdarlıqlar edən Kreml rəhbərliyi hələ ki, gözləmə mövqeyini tutur. Amma onun anidən fikir dəyişkənliyinə düşərək daha kəskin addım atmayacağına da kimsə zəmanət verə bilməz. Hər halda, son günlər Ermənistanla Rusiya arasındakı görünən gərginlik də deyilənlərə aid oluna bilər. Qalır hadisələrin məhz Brüssel görüşündən sonra necə və hansı şəkildə cərəyan etməsinə ki, bunu da zaman göstərəcək.

***Rövşən RƏSULOV***

ANALİTİK

# İki uşaq sindromu

**Azərbaycan xalqının ailə dəyərlərindən biri də çoxuşaqlılıqdır. Ta qədimdən ailələrimizdə 8-12 uşaq olub. Ən az uşaq olan ailələrdə isə 3-4-dən az olmayıb. Uşaq, ilk növbədə, bir millətin artım göstəricisi, ikincisi evin bəzəyi olmaqla yanaşı, həm də valideynin dayağı, onun gələcək köməkçisi, qocalıq çağının həmdəmidir.**

Uşaqların çox olması eyni zamanda bacı-qardaş arasında dostluq, rəfiqəlik münasibətlərini, bir-birinə arxa-dayaq olmaq xüsusiyyətlərini tənzimləyir. Ən başlıcası isə ailədə çox uşağın olması gələcək nəsillərin artım tendensiyasına da təminat verir. Belə isə müasir dövrdə nə üçün bütün ailələr yeni bir xəstəliyə düçar olublar? Bu xəstəliyin adı "iki uşaq" xəstəliyidir. Bu artıq bir sindroma çevrilib. Bütün düşüncələrdə bu sindrom dolaşır: iki övladımız olsun, biri qız, biri oğlan.

### Hanı o çoxuşaqlı ailələr?..

Haradasa 30 il bundan əvvəl ailələrimizdə uşaq sayı çox idi. Belə ailələrdən birində qonaq olanda insanın ürəyi açılırdı. Səsli-küylü bu cür ailələrdə insan hüzur tapırdı. Kimi kitab oxuyur, kimi televizor seyr edir, kimi ata-anasına ev, həyət-baca işlərində kömək edirdi.

Ailəni kiçik dövlətə bənzədirlər. Çoxuşaqlı ailələrə, bəli, kiçik dövlət demək olardı. Çünki belə ailələrdə iş prinsipi də dövlətin iş prinsipinə bənzəyirdi. Bütün işlər uşaqlar arasında bölüşdürülürdü. Hər kəs səhər açılandan günbatanadək ardıcıl şəkildə nə edəcəyini, hansı işlə məşğul olacağını bilirdi. Beləliklə də kiçik dövlət cəmiyyət üçün - böyük dövlətin gələcəkdə idarə edilməsi üçün həm də kadr hazırlayırdı.

Belə ailələrdə nizam-intizam o qədər yüksək səviyyədə olurdu ki, adam heyrət edirdi. Çünki ailələrdə çox uşaq vardı. Onların hər biri bir-birinə nümunə idi. Burada tənbəl uşaq ola bilməzdi. Qardaş-bacılar iş bölgüsü əsasında gündəlik həyatlarına cavabdeh idilər. Hər kəsin öz işi olduğuna görə axşam valideyn qarşısında hesabat verəcəyinə görə öz işinin öhdəsindən gəlməyə çalışırdı. Yəni haradasa, geridə qalan uşaq da bu həyat tərzi çərçivəsində fəallaşır, bacı-qardaşından geri qalmamağa çalışırdı.

Uşaq vaxtı biz tez-tez kəndə gedər, bibimgildə qonaq olardıq. Bibinin 2 oğlu, 3 qızı vardı. Səhərin sübhündən hər kəs oyanardı. Qızlardan biri ancaq ev işləri ilə məşğul olar, digəri həyət-baca işlərini görər, o biri qız isə anasına əkin işlərində kömək edərdi. Oğlanların da hərəsinin öz işi vardı. Biri heyvandarlıqla məşğul idi. Ot biçininə gedir, heyvanların saxlanılması üçün yaylı-qışlı bütün yem ehtiyatı, baytarlıq xidmətinin təşkili onun üzərinə düşürdü. O biri bibioğlu isə atasına əkin işlərində kömək edirdi. Maşınları vardı. Meyvə-tərəvəzləri vaxtaşırı bazara aparır, satıcılara verirdi. Əkin üçün gübrə, toyuq-cücə üçün yem alıb gətirirdi. Eyni zamanda bazarda öz məhsullarını realizə edib evi lazım olan digər ərzaqlarla təmin etmək o oğlanın işi idi.

Bütün bu işlərlə yanaşı, onların hamısı təhsil də alırdılar. O vaxtlar kənd təsərrüfatı texnikumu vardı, bir neçəsi orada oxuyurdu. Tezdən dərsə, dərsdən də evə, hər kəs öz işinin ardınca. Axşamlar süfrə açılanda hər kəs deyə-gülə, bir-birilərinə böyük sayğı, hörmətlə süfrədə əyləşər, şirin-şirin şam edərdilər. Süfrədə də bütün nemətlərdən olardı. Mən o zamanlar bu ailənin timsalında anlayırdım ki, birlik haradadırsa, dirilik də oradadır. Sonra çay süfrəsi arxasında günlük maraqlı hadisələr, ailənin gəliri-çıxarı müzakirə olunardı. Bu ailənin mənim həyatımda böyük rolu olub. Mən onlardan çox məqamları öyrənmişəm...

Bibimgilin ailəsi kimi onlarla ailə tanıyırdım. Hamısı da bir-birindən gözəl ailələr. Çoxuşaqlı, hüzur dolu ailələr. Onların qonşuluğunda bir ailə də vardı. Ailədə altı qız, iki oğlan övladı böyüyürdü. Uşaqların anası gözəl xalçaçı idi. Qızlarının da hamısını xalçaçı kimi yetişdirmişdi. Sonralar o qızlardan bir neçəsinin adı Azərbaycanın xalça ustalarından bəhs edən kitaba da düşmüşdü. Biz onlara gedəndə hananın qarşısında bu bacılar neçə xalça toxuyurdularsa, əllərini görmək olmurdu. O qədər səmimi qızlar idilər ki, çox böyük hövsələ ilə mənə də xalça toxumağı öyrətmişdilər. Sonralar həm bibiqızlarım, həm də qonşudakı qızların hamısı ailə qurdular, öz yuvalarına köçdülər, hər biri də gözəl ailə başçısı, həm də ana oldular. Oğlanlar da evləndilər, ailə-uşaq sahibi oldular. Lakin...

### Ata-babadan gələnləri öz ailəmizdə tətbiq edə bildikmi?

Uzun illər, bəli, ata-babadan nə görmüşdüksə, onu qurduğumuz yeni ailələrimizdə də tətbiq edirdik. Çoxuşaqlı ailələrimiz olurdu, zəhmətkeş, mehriban, səmimi, gözəl uşaqlar tərbiyə edə bilirdik. O uşaqlar ki, hər kəslə ünsiyyət qura bilirdilər. Evə qonaq gələndə hamı bir nəfər kimi ayaq üstündə qalırdı ki, necə edək, qonaq yesin, içsin, bizdən razı getsin. Ta indi evə qonaq gələndə evdə olan vur-tut iki uşaq kimi hərə öz otağına çəkilmirdi. Bilirsiniz nə üçün uşaqlar otaqlarına çəkilir? Çünki onların biri qız, digəri oğlandır. Başqa cinslərin nümayəndələri olduqlarından bir-biriləri ilə daha sıx ünsiyyət qura bilmirlər. Amma evdə ən azından iki qız, bir oğlan və yaxud da iki oğlan, bir qız olarsa, yenə də mənzərə başqa cür olar. Baxmayaraq ki, istər oğlan, istər qız olsun, evdə tək olanda həyatı sıxıcı olur, ünsiyyət qabiliyyəti zəif inkişaf edir, cəmiyyətə inteqrasiyası gecikir.

Bizə nə oldu, bir anın içərisində başqalaşdıq, bilmirəm. Bicə onu bilirəm ki, 30-35 il öncə bütün kişi və qadınlar çox uşağa "yox" dedilər. Bu barədə düşünəndə həmişə yadıma bir məsələ düşür. Olardı 1995-2000-ci illər. ABŞ-ın Azərbaycanda ADRA adlı bir təşkilatı fəaliyyət göstərirdi. Təşkilat tərəfindən əhaliyə tibbi xidmət və humanitar yardım göstərilirdi. O vaxtlar bunlar bütün regionlarda yerləşmişdilər. Şəhər və kəndlərdə qadınlar arasında ailə planlaşdırılması ilə bağlı seminarlar keçirirdilər. Bu seminarların iştirakçısı kimi yadımda qalan bir nüansı qeyd etmək istəyirəm. Söhbət belə idi ki, bir uşaqla o biri arasında bir neçə il fasilə verilməlidir. Bir-birinin ardınca olan doğuşlar qadın üçün, eyni zamanda uşağın da sağlam böyüməsi üçün zərərlidir. Başqa bir söhbətdə isə abortların ziyanlı olmasından danışılır, qadınlara bir neçə növdə qoruyucular təklif olunurdu. O zamanlar mən gənc idim, lakin o günlərə bu yaş aspektindən baxdıqda düşünürəm ki, bu cür təbliğatların bizdə iki uçaq sindromunun yaranmasında böyük əhəmiyyəti olmuşdur. Beləliklə, bir də baxdıq ki, ata-babadangəlmə çoxuşaqlılıq ənənəsinin üzərindən bir xətt çəkib bir kənara atmışıq, ikicə uşaqla kifayətlənib oturmuşuq. Son 30 ildə isə bu, sanki ötən bir dəbə çevrildi. Necə deyərlər, "qonşu qonşuya baxar, canın odlara yaxar" deyimi bu məsələyə də sirayət etdi. "Filankəsin bir qızı, bir oğlu var, vallah, bəsdi, pis dövrdü, böyütmək olmur", "Nəyə lazımdır axı çox uşaq", "Nə qədər çox olarsa, qayğısı da bir o qədər çox olur" kimi onlarla bəhanəni ortaya qoyub uşaqların sayını azaltdıq.



### Çətin dövrdə çox uşaq, texnologiya dövründə az uşaq...

Deyirik ki, çətin illərdir, çox uşaq nəyə lazımdır. Maraqlıdır, paltaryuyan, qabyuyan, tozsoran, ətçəkən maşınlar olmayan dövrdə evlərimizdə 7-8, 10-11 uşaq böyüyürdü. Zəhmətkeş analarımız həftənin 1-2 gününü bütövlükdə paltar yumağa həsr edirdilər. Əlləri paltar ovmaqdan cadar-cadar olmuşdu. Ləyən-ləyən qabı böyürlərinə vurub evlərindən kilometrlərlə uzaqda olan bulaqlara aparır, yuyub, yenidən evə daşıyırdılar. Bir yemək hazırlamaq üçün ət çəkmək saatdan artıq vaxt tələb edirdi, hələ ətçəkənin bıçağı kort olanda, qadınların zülmünü görən olardı kaş. Evləri, həyəti süpürmək üçün saatlarla vaxt tələb olunurdu. Zəhmətkeş analarımızın qəddi əyilib yer sürüməkdən ikiqat olurdu. Bax belə dövrdə heç kim gileylənmir, hələ üstəlik qadınlarımız dəfələrlə ana olurdular. Körpə uşaqlarını kürəklərinə şəlləyib təndirə çörək yapırdılar, təsərrüfat işlərinə gedirdilər. Vallah belə baxanda indiki qadınlardan dəfələrlə də sağlam idilər.

Həyatımıza paltaryuyan, qabyuyan, ətçəkən, tozsoran və sadalamadığım onlarla elektrik məişət əşyaları daxil olandan sonra biz başladıq şikayətlənməyə ki, dövran çox pisdir, çox uşaq nəyə lazımdır. Maraqlıdır, işlərimiz çox, çətin olanda uşaqlarımız çox idi, işlərimiz demək olar ki, azalıb-azalıb heç olmayanda uşaqların da sayını azaltdıq. Günahı da qoyduq dövranın, zamanın çiyinlərinə.

Qadınlarımız hərəkətsizlikdən min bir dərdə düçar oldular. Təsəvvür edək ki, o qədər paltar, qab yuyanda, ev-həyət süpürəndə, ət çəkəndə insanın əzələləri nə qədər fəaliyyətdə olurdusa, biz bir o qədər bədənimizi fəaliyyətsiz saxlayırıq. Əslində texnologiyanın inkişafı insanlara elə bir xəstəlik bəxş edib ki, belə bəlanı axtarsaq da tapmazdıq. Lakin hələ ki, fərqində deyilik.

Qadınlarımız indi hərəkətsizlikdən aldıqları çəkini dəf etmək üçün çarələr axtarırlar. Söhbət də düşəndə ana-nənələri haqqında deyirlər ki, o yazıqlar bu dünyada bir gün görmədilər, işləyə-işləyə öldülər. Hansı ki, onlar bizlərdən çox yaşamış, sağlam ömür sürmüş, çoxsaylı uşaqlarının əhatəsində maraqlı və mənalı günlər yaşamışlar. Biz isə qadın olaraq evlərimizdə sükut içərisində ömür sürürük. Yoldaşımız səhər çıxır, axşam gəlir, iki övladımız öz otağına çəkilir, hər işimizi texnoloji yeniliklər həyata keçirir, bizsə qalırıq televizorların qarşısında, əlimizdə də telefon. Bir gözümüz telefonda, bir gözümüz televizorda, gün də bitmək bilmir. Budurmu müasir həyat, budurmu ana-nənələrimizin o gözəl həyatını təkrarlamamaq üçün seçdiyimiz yol?..

### Xalasız, əmisiz uşaqlar...

Biz nəsil bibi, xala, əmi, dayı görmüşük, onların nəvazişini, qayğısını hiss etmişik. Ata-anamız bir yerə gedəndə bizi onlara tapşırardı. Bir az xəstələnən kimi hamısı bir nəfər kimi başımızın üstünü kəsərdi. Bir xeyir, bir şər işimizdə ata-anamızın yanında köməkçiləri, təsəlli verənləri olardı onlar. Bütün bunlardan əlavə isə onlar bizim ən dəyərlilərimiz, əzizlərimiz idilər. Ona görə ki, bizə ən doğma insanlar , canıyananlar idilər..

Elə ki, iki uşaq sindromu beyinlərimizi alt-üst etdi, dünyaya yalnız iki uşaq gətirməyə başladıq, bunların da biri hökmən oğlan olmalı idi, bunun üçün ultrasəs müayinələrinə yol açdıq, selektiv abortları həyatımıza qatdıq, onda uşaqlarımızın gələcəyindən xalaları, əmiləri də çıxarıb atdıq. Onların həyatda arxasız-dayaqsız qalmalarına şərait yaratdıq. Özümüzün bacısı, qardaşı, xala, bibi, dayı, əmisi olduğu halda, bunların necə böyük mənəvi gücə qadir olduqlarını bilə-bilə, övladlarımızı bu gözəl keyfiyyətdən məhrum etdik. Müasir dövrdə uşaqlarımızın uşaqları əsasən xalasız, əmisidirlər. Çox təəssüf ki, onlar "xala, əmi" dadının nə olduğunu bilmədən yaşayacaqlar. Hələ çox qorxuludur ki, qarşıda yeni qurulan ailələr bir uşaqla kifayətlənələr. Bax bu, ailələrimizdə başlanan problemin davamı, həm də sonsuzluğa aparan davamı ola bilər.

Bəzən uşaqlarımızı cəmiyyətə adaptasiya etməməkdə, otağından çıxmamaqda, ünsiyyət qurmaqda danlayırıq. Lakin bu məsələlərin heç biri üçün onlar günahkar deyil. Günah biz valideynlərdədir. Ona görə ki, iki uşaq seçimi bizim seçimimizdir, bu seçimin də "bəhrəsini" yaşamaqdayıq.

### Nə qədər ki, gec deyil...

Nə qədər ki, ailələrimizdə bir uşağa keçilməyib, hər birimiz övladlarımızı ən azından 3-4 uşaq dünyaya gətirmələri üçün maarifləndirməliyik. Yaşlı bir mama-tibb bacısı tanıyıram. O, həmişə deyir ki, iki uşaq əhali artımı deyil, onların biri ata, bir anadır. Ailədə 3-cü, 4-cü uşaq dünyaya gələrsə, o, artım deməkdir. Əks təqdirdə sənin ailəndə artım yoxdur.

Həqiqətən bu ağbirçək qadının söylədiklərində böyük həqiqət var. Yaxşı, ana-nənələrimizin 7-8, 10-12 övladı olduğu halda bizim barı heç olmasa, 3-4 övladımız olsun. Evlərimizdə səs gəlsin. Hər kəs öz otağına çəkilib ortalığı sükuta qərq etməsin, toplaşsınlar bir yerə, danışsınlar-gülsünlər, sabah bir-birilərinə arxa-dayaq olsunlar. Onların hər biri də ən azından cəmiyyətimizə 3-4 uşaq bəxş etsin, artaq, çoxalaq. Bu günlər uşaqlarla bağlı statistikaya baxanda, qarşımızda qaranlıq bir yol görünür. Selektiv abortlar oğlanların sayını kəskin şəkildə artırıb, qızların sayı azalıb. Bunun özü böyük problemdir. Bu səbəbdən də selektiv abortlara qəti qadağa qoyulmalıdır. Yoxsa bizlər illər ötsə də bu iki uşaq sindromunu özümüzdən kənarlaşdıra bilməyəcəyik. Çünki bu, çox dərindən beyinlərimizə yeridilib. Lakin mübarizə aparıb bu xalqın adətənənələrinin, ailə dəyərlərinin heç kimin əlində oyuncaq olmadığını hər kəsə sübut etməliyik.

**Mətanət MƏMMƏDOVA**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Gender, ailə və demoqrafiya məsələləri" istiqaməti çərçivəsində hazırlanıb*



# Bu futbolçu 50 milyon avroya transfer oldu!

"Tottenhem" "Atalanta"nın müdafiəçisi Kristian Romeronu birdəfəlik transfer edib. Klubun saytında yer alan məlumatda deyilir ki, argentinalı oyunçu ilə 2027-ci ilin yayına kimi müqavilə imzalanıb. Transfermarkt portalının məlumatına görə, bu transfer üçün İngiltərə təmsilçisi 50 milyon avro təzminat ödəyib.

Qeyd edək ki, K.Romero ötən mövsüm icarə əsasında "Tottenhem"də oynayıb və 30 oyunda 1 qol vurub, 1 qolun ötürməsini verib.

# Hər kəs ikinci şansa layiqdirmi?

"İnsanlar çalışmalıdır ki, ikinci şansı qarşı tərəfə görə deyil də məhz özünə görə verməlidir. Məsələn düşünməlidir ki, qarşı tərəf mənə hər hansı bir yanlış hərəkət edib və mən onunla davam etmək istəyirəmmi? Sanki özünə şans verirmiş kimi düşünməlidir". Bu fikirləri SİA-ya açıqlamasında psixoloq Fidan Nizamova bildirib.

Psixoloq qeyd edib ki, Qarşı tərəfə görə şans vermək doğru deyil: "Gənclərimizə xüsusilə tövsiyyə edərdim ki, bir yanlışa görə insanları, dostlarını, sevdiyini həyatlarından silməsinlər. Çünki insan hər şeyi doğru etdiyi zaman, bizim istədiyim kimi etdiyi zaman bizə xoş olur. Amma onlar yanlış addım atdıqda və ya səhv etdikdə həyatımızdan çıxarmağa çalışırıq. Bu da əlbəttəki haqsızlıqdır. Çünki hər kəsin səhv etmə sanşı var və bunu çox vaxt bilmədən edirlər. Həmçinin qarşı tərəfi yanız dürüst olduğuna görə sevmək eqoist bir davranışdır. O insanın yanlışları da ola bilər. Bu o demək deyil ki, bizim üçün böyük olan səhvləri bağışlayıb özümüzdən imtina etməliyik. Sadəcə qarşı tərəfin ilk səhvinə görə onu həyatımızdan çıxarmaq həmin şəxsə qarşı böyük haqsızlıqdır. Onun sizə olan sevgininin, xoş davranışının bir səhvə görə üstündən xətt çəkmək yanlışdır. Biz insanıq, səhv etmə haqqımız var.

Amma əgər mən qarşı tərəfi bağışlaya bilmirəmsə, onunla davam etmək istəmirəmsə onun ikinci şansa layiq olmasının heç bir önəmi yoxdur. Belə olan halda ikinci şansı vermək düzgün deyil. Həqiqətən qarşı tərəfin bizə etdiyi səhvi bağışlaya biliriksə, o səhvi xatırladığımız zaman qarşı tərəflə münasibətimiz korlanmırsa əgər ikinci şansı verə bilərik".

*Abutel İlhamqızı*





# Bu hamilələr risk qrupuna daxildir

## GİNEKOLOQ AÇIQLADI

"Yaşlı qadınlarda yumurta hüceyrə olmur. Onların hamilə qalması üçün donor yumurta hüceyrə olur və onu mayalandırırlar". Bu sözləri SİA-ya açıqlamasında cərrah, mama-ginekoloq Ləman Əliyeva deyib.

Onun sözlərinə görə, yeni, yaşlı qadından yumurta hüceyrəsi tapılması mümkün deyil: "Ümumiyyətlə, 40 yaşın üzərində olan hamiləliklər riskli sayılır. Amma hər hansı problem çıxacağı da 100 faiz deyil".

Ləman Əliyeva sözlərinə belə davam edib: "Cavan hamilələrdə risk olmadığı üçün genetik testlər tələb olunmur. Amma yaşlı hamilələrdə bunların hər birini etmək mütləqdir ki, gələcəkdə fəsadları görə biləsən. Çünki yaşlı hamilələrin uşaqlarında daun sindromu və autizm göstəricisi daha yüksəkdir".

*Ayşən Vəli*



# Ağ un ölümü yaxınlaşdırır?



"Ağ undan hazırlanan un məmulatları sağlamlıq üçün çox faydalı deyil. Problem ağ unun əldə edildiyi taxılda deyil, istehsalı, şəkli və son məhsul olan ağ undan qaynaqlanır". Bu sözləri SİA-ya açıqlamasında qida üzrə mütəxəsiss Asim Vəliyev bildirib.

Mütəxəssis qeyd edib ki, ağ un rafinasiya prosesindən keçərək əldə edilir: "Bu proses zamanı unun ən faydalı hissəsi olan rüşeym hissəsi və kəpəyi ayrılır. Həm də müxtəlif kimyəvi qatqı maddələri qatılır. Geriyə qalan hissəsi isə lifdən, vitamindən və mineraldan, nişasta, karbohidratla bol hissəsi qalır. Rafinasiya prosesindən çıxan ağ undan hazırlanan məmulatlarla qidalandığımız zaman, eynən şəkər kimi sürətlə sorulub qana daxil olur. Qan şəkəri artmağa və mədəaltı vəzdən çox insulin ifrazı baş verir. Qanda əvvəl hiperinsulemi, daha sonra insulinə müqavimət meydana gəlir. İnsulinə müqavimət daha sonra çox piylənməyə, şəkər xəstəliyinə, hipertoniyaya səbəb olur. Digər tərəfdən, rafinasiya prosesi buğdanın tərkibindəki E və B vitaminləri, dəmir və bir çox mineralları yox edir, qida dəyəri aşağı salır. Beləliklə də, orta ya qida dəyəri az faydalı qida çıxmış olur.

Bu səbəblə bir çox xəstəliklərin qaynağı olaraq göstərilən üç ağ zəhərdən biri də ağ un olur. Ağ undan hazırlanmış məmulatlar da insan sağlamlığı üçün risk yaratmış olur. Son 20 ildə artan həzm sistemi allergiyalarının, çölyak xəstəliyinin arxasında ağ unun olduğu ehtimal olunur".

*Banuçiçək Hüseynli*

## ELAN

Şamaxı rayonu Avaxıl bələdiyyəsi tərəfindən Avaxıl kənd sakini Qədimov Rasim Aydın oğlunun adına verilmiş torpaq sahəsinə dair JN 381 kod 41010058 saylı Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 3600**